

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ VN

№ 41 (832) ■ 19 oktyabr 2016 www.vergiler.az Qiyməti: 55 qəp.

# İlham Əliyev: «Azərbaycanda bütün sahələrdə ciddi islahatlar aparılır»

**Oktyabrın 17-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbul təşkil edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rəsmi qəbulda iştirak edib. Azərbaycanın dövlət himni səsləndikdən sonra Prezident İlham Əliyev nitq söyləyib:**



1990-cı ildə ulu öndər Heydər Əliyev müstəqillik yolunda çox önəmli və ciddi addımlar atmışdır. 20 Yanvar faciəsindən sonra o, birinci şəxs idi ki, sovet rəhbərliyini pislədi, Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürdü, onları ittiham etdi, sovet hökumətini, onun rəhbərinin fəaliyyətini pislədi. Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi və bu, müstəqillik uğrunda birinci addımlar idi

- Hörmətli xanımlar və cənablar.

İyirmi beş il bundan əvvəl - 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir. Beləliklə, Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşurdu. 1918-ci ildə müsəlman aləmində ilk demokratik respublika Azərbaycanda qurulmuşdur. Haqlı olaraq fəxr edirik ki, biz müsəlman aləmində birinci idik. Bu dəfə - 1991-ci ildə isə Azərbaycan öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında birincilər sırasında deyildi. Öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında Azərbaycan sayca 13-cü idi. Bu, tarixdir. Biz tarixi bilməliyik, yaddan çıxarmamalıyıq. Hesab edirəm ki, Azərbaycan o vaxt öz dövlət müstəqilliyini daha əvvəl elan edə bilərdi. Bu qədər gözləmək lazım deyildi. Xüsusilə onu da yaddan çıxarmamalıyıq ki, Sovet İttifaqının özəyini təşkil edən Rusiya öz dövlət müstəqilliyini avqust ayında, bizdən iki ay əvvəl elan etmişdi.

Onu da qeyd etməliyəm ki, hələ 1990-cı ildə ulu öndər Heydər Əliyev müstəqillik yolunda çox önəmli və ciddi addımlar atmışdır. 20 Yanvar faciəsindən sonra o, birinci şəxs idi ki, sovet rəhbərliyini pislədi, Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürdü, onları ittiham etdi, sovet hökumətini, onun rəhbərinin fəaliyyətini pislədi. Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi və bu, müstəqillik uğrunda birinci addımlar idi. Ondan sonra, artıq Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi 1990-cı ilin noyabr ayında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək, «Sovet Sosialist» sözlərini oradan çıxardı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o vaxt Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi elan edilmişdir və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, burada da bu addım atılsın. Əfsuslar olsun ki, bunu etmədilər. 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir. Bütün bu addımlar müstəqillik yolunda atılan addımlardır. Digər tərəfdən bütün bu addımlar onu göstərir ki, ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik. Müstəqilliyimizin birinci dövrü faciəvi dövr idi. 1991-1993-cü illərdə Azərbaycan çox böyük problemlərlə, itkilərlə üzləşmişdir. Bu dövrü iki mərhələyə bölmək olar. Birinci mərhələ 1991-ci ilin oktyabr ayından 1992-ci ilin yay aylarına qədər olan dövrdür. Bu dövr itirilmiş imkanlar, itkilər dövrü idi. Ermənistan Azərbaycana qarşı təcavüzə başlamışdı, azərbaycanlılar Dağlıq Qarabağdan qovulurdular. 1992-ci ilin may ayında Şuşanın və Laçın rayonunun işğal altına düşməsi böyük itki, böyük faciə idi.

O illərdə dövlətçiliyin əsasları qurulmamışdı, ekstremist elementlərə qarşı ciddi mübarizə aparılmamışdı, nizami ordu yaradılmamışdı, cəmiyyətdə milli həmrəylik, milli birlik yox idi. Bütün bu amillərdən, xüsusilə Şuşanın və Laçın rayonunun işğal altına düşməsindən istifadə edərək, - halbuki bu rayonların işğal altına düşməsində bilavasitə AXC-Müsavat qruplaşmasının rolu vardı, - bu qruplaşma hakimiyyəti qanunsuz olaraq zəbt etmişdi və birinci dövrün ikinci dəhşətli mərhələsi başlamışdı.

1992-ci ilin yay aylarından 1993-cü ilin iyun ayına qədərki dövr biabırçılıq, rüsvayçılıq, fəlakət dövrü idi. Hakimiyyəti qanunsuz olaraq zəbt etmiş AXC-Müsavat qruplaşması ölkəmizi uçuruma aparırdı. Kəlbəcər rayonunun 1993-cü ilin aprel ayında işğal altına düşməsindən sonra Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. Azərbaycanın daxilində gedən proseslər ölkəmizi çökdürürdü. İqtisadi böhran yaşanırdı, sənaye demək olar ki, iflic vəziyyətə düşmüşdü. O vaxtkı hakimiyyət ancaq öz maraqlarını təmin etmək üçün çalışırdı. O vaxt korrupsiya, rüşvətxorluq son həddə çatmışdı. Ölkəmizdə qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakının küçələrində əlisilahlı adamlar dəstə-dəstə gəzirdi, insanları incidirdi. Baxmayaraq ki, Ermənistan ilə qanlı döyüşlər gedirdi AXC-Müsavat qruplaşması Azərbaycanda öz hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsinə başlamışdı. Gəncə şəhəri onlar tərəfindən bombalanmışdı, qardaş qanı axıdılmışdı və bunun nəticəsində biz daha da böyük itkilərlə üzləşdik.

Cəmi bir il ərzində AXC-Müsavat qruplaşmasının yaritmaz, xəyanətkar fəaliyyəti nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini itirmək ərəfəsində idi və tarix sanki təkrarlanırdı. 1918-ci ildə əldə edilmiş müstəqilliyi 1920-ci ildə itirdik - 2 il ərzində. Bu dəfə də 2 ildən sonra artıq buna çox yaxın idik. Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevi Naxçıvanda devirmək, o cümlədən silahlı desant göndərmək istəyən AXC-Müsavat qruplaşması özü də ağır vəziyyətə düşəndən sonra Heydər Əliyevə müraciət etdi, onu Bakıya dəvət etdi ki, onların canlarını qurtarsın. Naxçıvana üç dəfə təyyarə göndərmişdilər. Heydər Əliyev Bakıya gəlməklə, ilk növbədə, Azərbaycan xalqının iradəsinə öz hörmətini göstərdi. O, böyük dövlət adamı, vətənpərvər insan kimi o ağır anlarda Bakıya gəldi və ondan sonra Azərbaycanda inkişaf dövrü başlamışdır. 1993-cü il dönüş ili idi. İyun ayında Heydər Əliyev Ali Sovetin sədri seçilmişdir və vəziyyət yavaş-yavaş inkişafa doğru getməyə başlamışdır. İlk növbədə, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, ordu quruculuğunda ciddi addımlar atıldı, dövlətçiliyin əsasları qoyuldu, sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul olundu. Ölkəmizdə çox ciddi siyasi islahatlar aparılmağa başlanmışdır. Onu da qeyd etməliyəm ki, əslində, müasir Azərbaycanda siyasi sistemin formalaşmasında Yeni Azərbaycan Partiyasının xüsusi yeri vardır.

1992-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaradılmışdır və siyasi mübarizə nümunəsini göstərmişdir. Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə aparılmış siyasi islahatlar demokratiyanın inkişafına, insan haqlarının qorunmasına hesablanmışdır. Azərbaycan o illərdə beynəlxalq təcriddən çıxa bilmişdir. Çünki ölkəmiz haqqında dünyada informasiya yox idi. Ermənistan erməni lobbisinin imkanlarından istifadə edərək bizə qarşı qarayaxma kampaniyası aparırdı. Bizim isə cavab vermək, reallığı dünya birliyinə çatdırmaq üçün imkanlarımız yox idi. Yəni, beynəlxalq təcridə, informasiya mühasirəsinə son qoyuldu.

Azərbaycanda iqtisadi islahatlara start verildi və bazar iqtisadiyyatı prinsipləri bərqərar oldu. Xarici siyasət prioritetləri məhz o illərdə müəyyən edildi. Azərbaycan müasir dünyəvi dövlət kimi öz inkişafına başladı. Yəni, məhz o illərdə ölkəmizin gələcəyi ilə bağlı strateji addımlar atılmışdır. Bu gün tarix göstərir ki, bu, yeganə düzgün yol idi.

Azərbaycan o vaxt çətin iqtisadi vəziyyətlə üzləşmişdi. Bizim sənayemiz demək olar ki, dağılmışdı, inflyasiya minlərlə faizlə ölçülürdü. Əlbəttə, belə vəziyyətdə xarici sərmayə olmadan ölkə iqtisadiyyatı inkişaf edə bilməzdi. İqtisadiyyat inkişaf edə bilməsə, təbii ki, ölkə müstəqil həyat sürə bilməzdi. Ona görə 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə «Əsrin kontraktı» imzalanmışdır ki, artıq o vaxtdan 22 il ötür. Amma bu gün də «Əsrin kontraktı» ölkəmizin inkişafında, güclənməsində öz rolunu oynayır. Azərbaycan tarixdə ilk dəfə olaraq Xəzər dənizini xarici investorlara təqdim etdi. Azərbaycana milyardlarla dollar həcmində investisiya qoyuldu və ölkəmiz inkişaf etməyə başladı. 1996-cı ildə «Şahdəniz» qaz yatağının işlənilməsi üzrə kontrakt imzalanmışdır. Bu gün həm Azərbaycanın, həm regionun və müəyyən dərəcədə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında «Şahdəniz» yatağının xüsusi yeri var.

Azərbaycan 1993-2003-cü illərdə öz inkişaf və sabitlik dövrünü yaşayırdı. Bu, müstəqilliyimizin ikinci dövrü idi. Bir daha qayıdıram müstəqilliyimizin ilk illərinə. Əgər o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət - millətə canı, qanı ilə bağlı olan insan hakimiyyətdə olsaydı, biz o bəlalarla üzləşməyəcəkdik. Ancaq tarix tarixdir. Biz tarixi dəyişdirə bilmərik. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, ölkəmizi irəliyə aparaq, gücləndirək və müsbət meyillər əsasında inkişafı təmin edək.

Bu baxımdan 2003-cü il, hesab edirəm ki, müstəqil tariximiz üçün də xüsusi əhəmiyyət daşıyır. Çünki 2003-cü ildə ölkənin bundan sonra hansı yolla gedəcəyi haqqında Azərbaycan xalqı öz qərarını verdi: Heydər Əliyev siyasəti davam edəcək, yoxsa ki, yenə Azərbaycan bəlalarla, fəlakətlərlə üzləşəcək?! Azərbaycan xalqı həmişə olduğu kimi, müdrikliyini göstərərək Heydər Əliyev siyasətinə öz səsini verdi. Onu da qeyd etməliyəm ki, 1993-cü ildə AXC-Müsavat qruplaşmasının iflasının əsas mənbəyi Azərbaycan xalqının iradəsi olmuşdur.

**Davamı 2-ci səhifədə**

# Azərbaycan-Pakistan əlaqələri yüksək səviyyədədir



Oktyabrın 14-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərifin rəsmi qarşılanma mərasimi olub. Mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif ilə məhdud tərkibdə görüşü olub. Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev iki ölkə arasında yüksək səviyyədə olan əlaqələrdən danışıb: «Bizim əlaqələrimiz yüksək səviyyədədir və əminəm ki, bu görüş əlaqələrimizi daha da gücləndirmək baxımından uğurlu olacaq. Biz bir çox sahələrdə əməkdaşlıq edirik. Bu gün həyata keçirilmiş işlərə bir daha nəzər salmaq və gələcəklə bağlı planlar qurmaq üçün yaxşı fürsətdir. Sizi qəbul etməkdən çox məmnunam. Ümidvaram ki, ölkəmizə səfəriniz səmərəli keçəcək».

Pakistanın Baş naziri Nəvaz Şərif çıxış edərək dəvətə görə minnətdarlığını bildirib: «Təşəkkür edirəm, cənab Prezident. Burada olmaq bizim üçün şərəfdir. Çox gözəl Bakı şəhərinə səmimi dəvətinizə və qonaqpərvərliyinizə görə Sizə minnətdaram. Şəhərinizə heyran qalmışam. Hər yerdə Sizin şəhərin gözəlliyindən çox danışılır.

Mən bir dəfə 1998-ci ildə yolüstü Bakıda olmuşam. Bu, mənim ondan sonra bu şəhərə ilk səfərimdir. Gözəl Bakı şəhərində olmaqdan məmnunam. Bakı dünyanın ən gözəl şəhərlərindən və mənim gördüyüm ən təmiz şəhərlərdən biridir. Mən bir daha burada olmağıma şadam».

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif ilə geniş tərkibdə danışıqları olub.

**Davamı 2-ci səhifədə**

## BU NÖMRƏMİZDƏ

ÖLKƏDƏ İSLAHATLARIN GENİŞLƏNDİYİ BİR VAXTDA VERGİ ÖDƏYİCİLƏRİNİN DƏ ÜZƏRİNƏ MÜƏYYƏN ÖHDƏLİKLƏR DÜŞÜR 3

TƏSƏRRÜFAT OBYEKTLƏRİNDƏ RİSKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ 5

BƏYANNAMƏLƏR ÜZRƏ KAMERAL VERGİ YOXLAMALARININ APARILMASI 5

BİZNESİN TƏŞKİLİNDƏ ƏSAS İSTİQAMƏTLƏR 6

# İlham Əliyev: «Azərbaycanda bütün sahələrdə ciddi islahatlar aparılır»

**Əvvəli 1-ci səhifədə**

Cəmi bir il xalq bunların yarıtmaz fəaliyyətinə dözə bilmişdir və Azərbaycan xalqı bu ləkəni tariximizdən yumaq üçün o hakimiyyətə son qoydu. O vaxtdan bu günə qədər o hakimiyyət tarixin zibilxanasındadır.

Qeyd etdiyim kimi, 2003-cü il seçim ili idi. Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, yenə də Azərbaycan xalqı düzgün seçim etmişdir. 2003-cü ildən bu günə qədər Azərbaycanda sürətli inkişaf dövrü yaşanır, Heydər Əliyev siyasəti davam etdirilir. Bu, müstəqilliyimizin üçüncü dövrüdür. Bu üçüncü dövr ikinci dövrün məntiqi davamıdır. Bu illər ərzində Azərbaycan bütün istiqamətlər üzrə çox böyük uğurlara imza atdı. Bizim beynəlxalq əlaqələrimiz genişləndi. Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir. İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe daha çox beynəlxalq dəstək qazanır. Artıq dünya ictimaiyyəti bilir ki, reallıq nədən ibarətdir. Yəni, bizim torpaqlarımız işğal altındadır. BMT Təhlükəsizlik Şurasının, digər təşkilatların qətnamələri icra edilmir. Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq əsasında həll edilməsi bizim prinsipial mövqeyimizdir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir.

Beynəlxalq münasibətlər istiqamətində bizim hörmətimizi əks etdirən tarixi hadisə bir neçə il bundan əvvəl baş vermişdir. Biz BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Bu hadisə təkcə ona görə önəmli deyil ki, biz dünyanın ali orqanına seçildik və orada iki dəfə sədrlik etdik. Ona görə önəmlidir ki, dünyanın 155 ölkəsi bizə səs verdi, özü də çox ağır mübarizə şəraitində. Bəzi qüvvələr bizə qarşı birləşmişdi və imkan vermək istəmirdilər ki, Azərbaycan seçilsin. Yəni, biz o yerə böyük çətinliklə sahib olduq. Bu da daha bir göstəricidir. Yəni, dünya birliyi deyəndə biz bütün ölkələri nəzərdə tuturuq. Dünya birliyi bu gün bizi dəstəkləyir.

Biz 2003-cü ildən bu günə qədər iqtisadi sahədə analoqu olmayan inkişaf dövrünü keçmişik və yaşayırıq. İqtisadiyyat üç dəfə artmışdır. Heç bir başqa ölkədə bu qısa müddət ərzində iqtisadiyyat üç dəfə artmayıb. Sənaye istehsalı da üç dəfə artmışdır. Biz yoxsulluğa son qoyduq. Təxminən 50 faiz səviyyəsində olan yoxsulluq 5 faizə düşüb. İşsizlik ilə çox ciddi mübarizə aparılır. İşsizlik çox aşağı səviyyədədir. Azərbaycan regionlarının inkişafına start verildi. Dövlət proqramları icra edilməyə başlamışdır və bunun nəticəsində bölgələrdə 1 milyon 300 mindən çox iş yeri yaradılmışdır. Bölgələr canlandı, şəhərlərimiz abadlaşdı, müasir infrastruktur layihələri icra edildi. Biz elektrik enerjisini, qazı idxal edən ölkədən ixrac edən ölkəyə çevrildik. Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilirdi və göstərilir. Maaşlar, pensiyalar son 13 il ərzində dəfələrlə artmışdır. Sosial infrastruktur layihələri icra edilir. Üç mindən çox məktəb, 600-dən çox tibb ocağı, bölgələrdə 40-dan çox İdman Olimpiya Mərkəzi tikilmişdir. Bütün bunlar son illər ərzində əldə edilmiş nailiyyətlərdir.

Biz texnoloji inkişafa doğru gedirik. Bu gün Azərbaycan kosmik klubun məhdud sayda üzvlərindən biridir. İki peykimiz var, üçüncü peyk də yaxın zamanlarda istifadəyə veriləcək.

Regional əməkdaşlıq məsələlərinin həllində Azərbaycan çox önəmli bir ölkəyə çevrilibdir. Bizim təşəbbüsümüzlə icra edilən böyük enerji layihələri son illər ərzində daha da geniş miqyasa çıxıb. Artıq bu, qitələrarası enerji layihələridir. Xüsusilə «Cənub» qaz dəhlizini qeyd etməliyəm.

Onu da qeyd etməliyəm ki, bu dəhliz 2006-cı ildə və 2007-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin əsasında yaradılır. Əgər o kəmərlər yaradılmasaydı, «Cənub» qaz dəhlizi də yaradılmazdı. Bu gün dünyanın ən böyük enerji layihələrindən biri olan «Cənub» qaz dəhlizi uğurla icra edilir. Biz «Şahdəniz-2» layihəsinin icrasında artıq son mərhələyə yaxınlaşırıq. Layihənin icrası artıq 83 faiz təşkil edir. TANAP layihəsinin icrası təqribən 40 faizə yaxındır. Biz bu nəhəng enerji, iqtisadi layihəni uğurla icra edirik. Bu, bizə gələcəkdə çox böyük əlavə iqtisadi dividendlər gətirəcək. Biz zəngin qaz ehtiyatlarımızı etibarlı yollarla dünyanın ən böyük, bizim üçün ən yaxın bazarlarından biri olan Avropa bazarına çıxarırıq. Bizim enerji siyasətimiz dünya tərəfindən yüksək qiymətləndirilir. Biz beynəlxalq əməkdaşlıq formatını yaratmışıq və bu formatı genişləndiririk.

«Cənub» qaz dəhlizi tarixi layihədir. Bu, bizim uğurlu gələcək inkişafımızı müəyyən edəcək. Bununla bərabər, biz iqtisadiyyatımızın digər sektorlarının inkişafı ilə bağlı çox ciddi addımlar atırıq. Xüsusilə son müddət ərzində Azərbaycanda sənayenin, kənd təsərrüfatının inkişafı artır. Baxmayaraq ki, dünyanın iqtisadi böhranı davam edir, biz bu istiqamətdə də çox ciddi addımlar atmışıq. Əminəm ki, yaxın illərdə qeyri-neft sektorunun inkişafı daha da sürətlə gedəcək. Bu gün iqtisadiyyatımızın təxminən 70 faizi qeyri-neft sektorunda formalaşır. Biz indi ixracın şaxələndirilməsi ilə ciddi məşğuluq. Elə etməliyik ki, neftdən, qazdan asılılıq minimum səviyyəyə endirilsin.

Azərbaycanda idarəçilikdə ciddi islahatlar, xoşagəlməz hallara qarşı mübarizə aparılır. Korrupsiya, rüşvətxorluq bizim uğurlu inkişafımızı əngəlləyən əsas bəlalardır. Bu istiqamətdə də institusional tədbirlərin görülməsi öz gözəl nəticəsini verməkdədir. Biz artıq dünyaya intellektual məhsul təqdim edirik, hətta ixrac edirik. «ASAN xidmət» bizim məhsulumuzdur. Artıq bu xidmətə 12 milyon müraciət olmuşdur, 4 milyona yaxın insan bu imkanlardan istifadə edir və indi başqa ölkələrdə bu təcrübə öyrənilir. Biz gələcəkdə də dünya bazarlarına şaxələndirilmiş ixrac imkanlarımızı təqdim etməliyik. O cümlədən intellektual məhsulun ixracı xüsusi əhəmiyyət daşıyır.

> 2003-cü ildən bu günə qədər iqtisadi sahədə analoqu olmayan inkişaf dövrünü keçmişik və yaşayırıq. İqtisadiyyat üç dəfə artmışdır. Heç bir başqa ölkədə bu qısa müddət ərzində iqtisadiyyat üç dəfə artmayıb

Azərbaycan bu gün dünyada çox etibarlı tərəfdaş kimi tanınır. Çünki bizim iştirak etdiyimiz bütün layihələr əməkdaşlığa hesablanıb. Biz hesab edirik və həyat göstərir, düz hesab edirik ki, ölkələr arasındakı əməkdaşlıq bəzi problemləri aradan götürə bilər. Enerji siyasətimiz xoşniyyətlidir. Bundan heç vaxt hansısa başqa məqsəd üçün istifadə etməmişik. Bütün digər regional təşəbbüslər də əməkdaşlığa hesablanır, o cümlədən nəqliyyat sahəsində. Biz bu gün «Şərq-Qərb» dəhlizinin yaradılmasında fəal rol oynayırıq. Bakı-Tbilisi-Qars dəmir yolu yaxın aylarda istismara veriləcək. Beləliklə, biz özümüzü daha da gözəl imkanlarla təmin etmək üçün Avropanı Asiya ilə birləşdiririk. Çünki bu dəhliz bizə çox böyük iqtisadi mənfəət gətirəcək. Bu dəhlizdən keçən yüklərin həcmi on milyonlarla ton səviyyəsində olacaq. Bununla bərabər, biz «Şimal-Cənub» dəhlizini də yaradırıq. Yenə də təşəbbüs göstərmişik, yenə də regional əməkdaşlıq formatını təqdim etmişik və bu, artıq yaradılıb. Bu da bizə əlavə on milyonlarla ton yük daşımaq imkanları verəcək.

Bax, budur neft amilindən asılılığı azaltmaq, qeyri-neft sektorunun inkişafı. Coğrafi vəziyyətimizdən istifadə edərək biz bu layihələri ortaya qoyuruq və onları icra edirik.

Qonşularla münasibətlər ən yüksək səviyyədədir. Heç bir problemimiz yoxdur. Belə də olmalıdır. Əgər hər bir ölkə bizim kimi qonşularla münasibətləri qura bilsəydi, dünyada heç bir müharibə baş verməzdi. Müharibələrin əsas səbəbi ondan ibarətdir ki, qonşular bir-biri ilə yola getmir. Yenə də deyirəm, əgər 1990-cı illərin əvvəllərində ulu öndər Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Ermənistan-Azərbaycan müharibəsi başlamazdı. Biz heç vaxt buna imkan verməzdik. Ancaq bu gün biz bu problemi həll etməliyik. Bunun həm diplomatik yolları var, həm digər yolları. Biz ordu quruculuğu istiqamətində çox böyük addımlar atmışıq. Bu gün beynəlxalq ekspertlər də qeyd edirlər ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz bunu bilirdik, ancaq bu gün bunu bütün dünya bilir. Bu ilin aprelində təmas xəttində baş vermiş hadisələr Azərbaycan Ordusunun gücünü bir daha göstərdi. Bizim ordumuz əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi. Orada indi Azərbaycan bayrağı dalğalanır. Bu, bizim gücümüzü göstərir. Biz gücümüzü bilirik, gücümüzə əminik və düşmənin istənilən hədəfini məhv edə bilərik. Sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll edilsin.

Azərbaycan son illər ərzində dünya miqyasında multikulturalizm mərkəzinə çevrilib. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dünya forumları, sivilizasiyalararası, humanitar, mədəniyyətlərarası dialoq forumları bunu göstərir. Biz nəinki ölkə daxilində bu məsələləri lazımi səviyyədə tənzimləyirik, eyni zamanda, bir çox ölkələr üçün yol göstəririk. Biz istəyirik ki, bu nümunədən istifadə etsinlər. Əgər etsələr yenə də gərginlik azalar. Çünki bir çox hallarda müharibələr dini və məzhəb zəminində aparılır. İndi yan-yörə, hər tərəf alovlanır, yanır. Azərbaycanda sabitlik hökm sürür, inkişaf dinamikası güclənir. Bizim ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri özlərini rahat hiss edirlər. Onlar hamısı bizim qardaşlarımızdır, dəyərli vətəndaşlarımızdır. Bu da bir nümunədir. Bu, böyük bir sərvətdir. Biz bu sərvəti qoruyuruq. Ümumiyyətlə, ölkəmizi bütün bəlalardan qoruyuruq. Heç kimin işinə qarışmırıq və qoymuruq ki, kimsə bizim işimizə qarışsın. Ancaq xoş niyyət göstəririk. Ancaq hər bir məsələ ilə, xüsusilə bizi maraqlandıran məsələ ilə bağlı prinsipial mövqeyimiz həmişə ifadə olunur. Bizim siyasətimiz güzəştsiz siyasətdir. Biz prinsipial məsələlərlə bağlı heç kimə güzəştə getməmişik və getməyəcəyik. Müstəqil, ləyaqətli siyasət aparırıq, öz gücümüzə, xalqın dəstəyinə güvənirik. Xalq da bizim siyasətimizə öz dəstəyini göstərir. Bu yaxınlarda - ötən ay keçirilmiş referendumda Azərbaycan xalqı bizim siyasətimizə öz dəstəyini bir daha ifadə etdi. Referendumun nəticələrinin əsas mahiyyəti bundan ibarətdir. Biz düzgün yoldayıq. Bu yol inkişaf yoludur, müstəqillik yoludur. Ötən 25 ilin 23 ili şanlı tarix illəridir. Bu gün Azərbaycan dünya miqyasında müasir, sürətlə inkişaf edən, gözəl, qonaqpərvər, ləyaqətli ölkə kimi tanınır.

İyirmi beş il böyük tarixdir. Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik. Bizim gözəlləşən şəhərlər, abadlaşan regionlar və dünyanın ən gözəl şəhərlərindən biri olan Bakı bunun əyani sübutudur.

> Biz prinsipial məsələlərlə bağlı heç kimə güzəştə getməmişik və getməyəcəyik. Müstəqil, ləyaqətli siyasət aparırıq, öz gücümüzə, xalqın dəstəyinə güvənirik. Xalq da bizim siyasətimizə öz dəstəyini göstərir

Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik. Müstəqilliyimiz dönməzdir, əbədidir. Müstəqilliyimizin möhkəmlənməsində bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

Yaşasın müstəqil Azərbaycan Respublikası!

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından sonra rəsmi qəbul konsert proqramı ilə davam etmişdir.

# Azərbaycan-Pakistan əlaqələri yüksək səviyyədədir

**Əvvəli 1-ci səhifədə**

Həmin gün Prezident İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Nəvaz Şərif mətbuata bəyanatlarla çıxış ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Pakistan bizim üçün ən yaxın dost və müttəfiqlərdən biridir. Pakistan Azərbaycanı müstəqil dövlət kimi tanıyan ilk üç ölkədən biridir. Xalqımıza bildirmək istəyirəm ki, həmin vaxt Baş nazir cənab Şərif idi. O vaxtdan biz çox yaxın dostluq əlaqələri qurmuşuq. Biz beynəlxalq təşkilatlarda - BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər beynəlxalq qurumlarda hər zaman bir-birimizi dəstəkləyirik. Biz Kəşmir və Dağlıq Qarabağ məsələlərində bir-birimizi dəstəkləyirik. Azərbaycan Kəşmir məsələsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həllini tam dəstəkləyir. Həmçinin Pakistan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həllini tam dəstəkləyir. Təəssüf ki, onilliklər bundan əvvəl qəbul edilmiş bu qətnamələr yerinə yetirilmir. Bu, ikili standartlarla yanaşmanın göstəricisidir.

Qeyd olunub ki, iki ölkə arasında siyasi təmaslar çox yüksək səviyyədədir: «Lakin biz iqtisadi sahədə, investisiya və qarşılıqlı faydalı birgə müəssisələrin yaradılması sahəsində daha çox işləməliyik. Biz iqtisadi sahədə ticarət mübadiləsinin səviyyəsindən razı deyilik. Ona görə də bu gün biz ticarət mübadiləsini necə artıra biləcəyimizi müzakirə etdik. Biz Pakistana nə ixrac edə bilərik, Pakistan Azərbaycana nə ixrac edə bilər kimi məsələlər qarşıdakı aylarda həll olunacaq».

Azərbaycan Prezidenti iki müttəfiq ölkə arasında hərbi sahədə əməkdaşlıq məsələlərinə də toxunub: «Bizim çox yaxşı əməkdaşlığımız var və bu gün biz ölkələrimizin silahlı qüvvələri arasında birgə hərbi təlimlə bağlı planları müzakirə etdik. Eyni zamanda, Pakistanın çox inkişaf etmiş müdafiə sənayesi var və biz bu sahədə əməkdaşlığı çox ətraflı müzakirə etdik. Azərbaycan da demək olar 10 ildir ki, öz müdafiə sənayesini inkişaf etdirir. Beləliklə, biz birgə istehsalatı qurmaq üçün müştərək şəkildə işləyə bilərik. Eyni zamanda, biz Pakistandan ən müasir, yüksək texnologiyalı silahlar almaq istəyirik və bu məsələdə tam anlaşmamız var».

Bəyanatda iqtisadi əməkdaşlığın digər sahələrində, xüsusilə kənd təsərrüfatı, turizm sahələrində əməkdaşlıq, yeni nəqliyyat layihələri məsələləri də öz əksini tapır.

Sonra Pakistanın Baş naziri Məhəmməd Nəvaz Şərif mətbuata bəyanatla çıxış edib: «Bu gün bu gözəl ölkədə olmaq da mənim üçün xüsusi qürurverici bir haldır... «Küləklər şəhəri» adlandırılan Bakı bir çox pakistanlıya doğma vətənini xatırladır. Bakının mərkəzində yerləşən Multanı karvansarayı, - mən dünən oranı ziyarət etdim, - xalqlarımız arasında tarixi bağlılığın təsdiqidir. Həmkarlarıma bildirmək istərdim ki, bu karvansaraya Multan şəhərinin şərəfinə «Multanı» adı verilib. Bura çox gözəl bir yerdir, vaxtilə insanlar burada gecələmişlər. Mən də dünən böyük məmnuniyyətlə bu karvansarayla tanış oldum. Dediyim kimi, bu, bizim tarixi bağlılığımızın təsdiqidir». Azərbaycanda mövcud vəziyyətdən danışan Nəvaz Şərif ölkəmizdə diqqətəlayiq siyasi sabitlik, ictimai həmrəylik və böyük iqtisadi inkişaf olduğunu bildirib: «Prezident Əliyevin müdrik rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi təqdirəlayiq iqtisadi inkişaf və sosial tərəqqi Pakistanda böyük rəğbətlə izlənilir. Pakistan və Azərbaycan hər zaman bir-birinə bənzər baxışlara malik olmuşlar və Prezident Əliyev ilə bu görüşümdən sonra məmnunluqla əmin oldum ki, bizim ideallarımız da üst-üstə düşür. Biz hesab edirik ki, regional və qlobal məsələlər beynəlxalq hüquq çərçivəsində, sülh və dialoq vasitəsilə həll edilməlidir. Biz sülh prinsipinə sadiq olan ölkəyik. Biz digər dairələrin açıq-aşkar təcavüzünə baxmayaraq, sülh naminə inkişaf prinsiplərinə sadiqik. Ancaq sülh prinsipinə cəsarətli sadiqliyimiz heç vaxt yanlış olaraq, zəiflik kimi qəbul edilməməlidir».

Pakistanın Baş naziri ölkəsinin Ermənistan-Azərbaycan münaqişəsinə münasibətini bir daha vurğulayıb: «Pakistan Dağlıq Qarabağ məsələsi ilə bağlı aydın mövqeyə malikdir. Biz Azərbaycanın işğal olunmuş bütün torpaqlarının tamamilə azad edilməsinin, Dağlıq Qarabağdan və ətraf rayonlardan erməni silahlı qüvvələrinin çıxarılmasının, qaçqın və məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasının tərəfdarıyıq. Mən Kəşmir münaqişəsi ilə bağlı Pakistanın mövqeyinin Azərbaycan tərəfindən dəstəklənməsini, yəni, məsələnin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun dialoq və sülh vasitəsilə həll edilməsinin tərəfdarı olmasını yüksək qiymətləndirirəm. Hesab edirəm ki, hər iki məsələnin tam həllinə qədər qarşılıqlı dəstək sarsılmaz olaraq qalacaq. Bizim regionlarımızın inkişafının və firavanlığının, əmin-amanlığının və təhlükəsizliyinin perspektivləri həmin münaqişələrin girovuna çevrilib».

# Qlobal Forum Azərbaycanın hecabatını təcdiq etdi

## Ölkəmiz vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə «Əsasən uyğundur» reytinqinə layiq görülüb

Azərbaycan Respublikası 2013-cü ilin fevral ayında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumuna üzv olmuşdur. 2015-ci ildə Azərbaycan üzrə qiymətləndirmənin 1-ci mərhələsinə yekun vurulmuş və ölkəmiz növbəti mərhələyə keçmişdir. 2016-cı ildə isə 2-ci mərhələ çərçivəsində mart ayının 9-11-də qiymətləndiricilər Bakıda səfərdə olmuşlar.

Bu prosesin davamı olaraq, bu günlərdə Fransanın paytaxtı Paris şəhərində OECD-nin Vergi məqsədləri üçün şəffaflıq və məlumat mübadiləsi üzrə Qlobal Forumunun Qiymətləndirmə Qrupunun 24-cü iclası keçirilmişdir. Azərbaycan üzrə ölkə hesabatının müzakirə olunduğu tədbirdə Vergilər Nazirliyini Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin rəisi Zaur Fətizadə, həmin Baş İdarənin Beynəlxalq əməkdaşlıq idarəsinin rəisi Ülvi Yusifov və Maliyyə institutlarında vergi monitorinqi idarəsinin rəis müavini Vüsal Şıxəliyev, Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin şöbə rəisi Nigar Alimovadan ibarət nümayəndə heyəti təmsil etmişdir. Hesabatın müzakirəsi Qlobal Forumun prezidenti, katibliyin rəhbəri, Qiymətləndirmə Qrupunun 30 ölkənin nümayəndələrindən təşkil olunmuş üzvləri, qiymətləndiricilərin iştirakı ilə həyata keçirilmişdir.

Qeyd edək ki, ölkə hesabatı oktyabr ayının sonlarında Qlobal Forum tərəfindən nəşr olunacaq.

# Ölkədə islahatların genişləndiyi bir vaxtda vergi ödəyicilərinin də üzərinə müəyyən öhdəliklər düşür



Vergilər Nazirliyinin Vergi auditi və operativ vergi nəzarəti idarəsinin rəisi Toğrul Quliyevlə müsahibə

***- Toğrul müəllim, ölkə Prezidentinin «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncamında mühüm istiqamətlərdən biri vergi yoxlamaları ilə bağlıdır...***

- 2016-cı ildə vergi sahəsində aparılacaq islahatlarda vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi mühüm yer tutur. Aparılacaq islahatlara vergi yoxlamalarının təyin edilməsi, keçirilməsi və nəticələrinin rəsmiləşdirilməsi prosesi üzrə vergi inzibatçılığının təkmilləşdirilməsi, habelə vergi ödəyiciləri ilə vergi orqanları arasında birbaşa təmasın minimuma endirilməsi məqsədilə elektron auditin tətbiq dairəsinin genişləndirilməsi və bu sahədə keçirilən vergi yoxlamalarının keyfiyyətinin artırılması nəzərdə tutulub. Müəyyənləşdirilmiş istiqamətlər üzrə görülən işlər hazırda yekunlaşmaq ərəfəsindədir. İlkin olaraq onu qeyd edə bilərəm ki, səyyar vergi yoxlamasının və elektron auditin keçirilməsi qaydaları hazırlanıb və Vergilər Nazirliyi Kollegiyasının qərarı ilə təsdiq edilib. Yeni qaydalar vergi yoxlamalarının təyin edilməsi, yoxlamaların aparılması və nəticələri üzrə qərarların qəbul edilməsində vergi ödəyicilərinin qanuni maraqlarının qorunmasına, vergi ödəyiciləri ilə birbaşa təmasın azaldılmasına, yoxlamaya sərf ediləcək günlərin sayının azaldılmasına xidmət edəcəkdir. Bununla yanaşı, elektron auditin aparılması üçün mütəxəssislərin hazırlanmasına başlanılıb və qanunvericilik üzrə bilik səviyyələrinin artırılması ilə yanaşı, onlara kompüter proqramlarından istifadə vərdişlərinin yüksəldilməsi üçün də təlimlər keçiləcəkdir.

Yeni qaydalar vergi yoxlamalarının təyin edilməsi, aparılması və nəticələri üzrə qərarların qəbul edilməsində vergi ödəyicilərinin qanuni maraqlarının qorunmasına xidmət edəcəkdir

***- Vergilər Nazirliyi tərəfindən vergi yoxlamaları və vergi nəzarətinin təşkili sahəsində hansı işlər görülür?***

- 2015-ci ilin sonlarından sahibkarlıq subyektlərində yoxlamaların məhdudlaşdırılması və vergi nəzarəti tədbirlərinin sayının azaldılması sahibkarlara öz fəaliyyətlərini genişləndirmək üçün əlavə imkanlar verib. 2016-cı ilin yanvar-sentyabr ayları ərzində 4441 səyyar vergi yoxlaması başa çatıb ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə yarıbayarı az olmuşdur.

2015-cı ilin yanvar-sentyabr ayları ərzində 58.574 obyekt üzrə vergi nəzarəti tədbiri keçirilərək 66.527 akt tərtib edildiyi halda, 2016-cı ilin eyni dövrü üzrə 12.735 obyekt üzrə vergi nəzarəti tədbiri keçirilərək 14.567 akt tərtib edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə nəzarət tədbirləri nəticəsində tərtib edilmiş akt sayının 4,6 dəfə azalması deməkdir.

Operativ vergi nəzarəti tədbirləri zamanı cari ilin yanvar-sentyabr aylarında tətbiq edilmiş inzibati cərimə və maliyyə sanksiyalarının məbləği keçən ilin ilk doqquz ayı ərzindəkinə nisbətən 8,5 dəfə azalaraq cəmi 2,3 milyon manat təşkil etmişdir.

Nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulması, Vergi Məcəlləsinin 33.4-cü maddəsində göstərilən müddətdə vergi orqanında uçota alınmaq üçün ərizənin verilməməsi və (və ya) Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradılması faktlarının aşkar edilməsi məsələləri üzrə keçirilmiş operativ vergi nəzarəti tədbirlərinin nəticələrinə görə 7292 halda vergi ödəyicisinin məsuliyyətə cəlb edilməsindən imtina edilməsi haqqında qərar çıxarılıb.

Göründüyü kimi, vergi orqanları tərəfindən həyata keçirilən operativ nəzarət tədbirlərində əsas məqsəd heç də cərimə tətbiq etmək deyil, vergidən yayınma hallarının qarşısını əvvəlcədən alaraq, vergi mədəniyyətinin yüksəldilməsinə şərait yaratmaqdır. Bunun qarşılığında vergi ödəyiciləri də öz əməllərinə görə cavabdeh olmalı və qanunvericiliklə müəyyən edilmiş vəzifələr əsasında fəaliyyət göstərməlidir. Lakin bir sıra vergi ödəyiciləri onlar üçün yaradılmış şəraiti düzgün qiymətləndirə bilmədiklərinə görə vergi qanunvericiliyinin pozulması hallarına hələ də rast gəlinir.

Bəzi hallarda yoxlamaların sayının azaldılmasından sui-istifadə nəticəsində vergidən yayınma hallarına yol verilir. Bu hallar daha çox nağd pul hesablaşmalarının aparılması qaydalarının pozulması, əmək müqavilələri hüquqi qüvvəyə minmədən şəxslərin muzdlu işə cəlb edilməsi, gəlir və xərclərinin uçotunun aparılmaması, satış məqsədilə mallar alınarkən rəsmiləşdirilmənin həyata keçirilməməsi zamanı baş verir.

Bu məqsədlə cari ilin aprel-sentyabr aylarında aparılmış vergi nəzarəti tədbirləri zamanı 18 vergi ödəyicisi tərəfindən 398 nəfərin əmək müqavilələri hüquqi qüvvəyə minmədən muzdlu işə cəlb olunduğu aşkar edilib. Bu hallar Cinayət Məcəlləsinin 162-1-ci maddəsinə əsasən cinayət məsuliyyətinə səbəb olduğu üçün toplanmış sənədlər əsasında cinayət işi başlanılıb.

Riskli hesab edilmiş 1148 vergi ödəyicisi üzrə keçirilmiş vergi nəzarəti tədbirləri zamanı qanun pozuntuları aşkar edilmiş və aparılmış xronometraj metodu ilə müşahidələr zamanı dövriyyənin orta hesabla 4,7 dəfə azaldıldığı müəyyən edilmişdir.

Bundan əlavə, aksizli malların istehsalı və satışı fəaliyyəti üzrə keçirilmiş vergi nəzarəti tədbirləri zamanı 23,7 min manat məbləğində 2,4 min ədəd saxta aksizli mal, 55,8 min manat məbləğində 16,7 min ədəd aksiz markası olmayan malların satışı halları aşkar edilib.

Keçirilmiş operativ vergi nəzarəti tədbirləri zamanı 312 halda qanunla müəyyən edilmiş qaydada akkreditasiya olunmadan idman-mərc oyunlarının təşkili və ya keçirilməsi halları aşkar edilərək İnzibati Xətalar Məcəlləsinə əsasən protokollar tərtib edilərək məhkəmələrə göndərilib və məhkəmələr tərəfindən tətbiq edilmiş inzibatı cərimələrin miqdarı 439,5 min manat təşkil edib.

***- Qanunvericiliyə əsasən, vergi ödəyicisinin vergi nəzarəti tədbirləri nəticəsində tərtib edilmiş akt və qəbul edilmiş qərarlarla razılaşmadıqda yuxarı vergi orqanına müraciət etmək hüququ var. Bu sahədə vəziyyət necədir?***

- Vergi ödəyiciləri tərtib edilmiş aktlarla razılaşmadıqda onların hüquqlarının qorunması, narazılıqlarının aradan qaldırılması məqsədilə həmin aktlara yuxarı vergi orqanı tərəfindən baxılır. Bu məqsədlə yuxarı vergi orqanı tərəfindən Vergi Məcəlləsində nəzərdə tutulan müddəaların düzgün tətbiq olunması və prosedur qaydalarına tam əməl edilməsi araşdırılır. Tərtib edilmiş aktlar qanunvericiliyin tələblərinə uyğun olmadıqda vergi ödəyicisi məsuliyyətə cəlb olunmur və bu hal vergi ödəyicilərinin tərtib olunmuş aktlardan narazı qalmamaları ilə nəticələnir.

İdarəyə daxil olan şikayət xarakterli müraciətlər «Vətəndaş müraciətləri haqqında» və «İnzibati icraat haqqında» qanunun tələblərinə uyğun olaraq baxılır. Şikayətlərin araşdırılması zamanı məlum olur ki, kiçik və orta sahibkarlıqla məşğul olan şəxslər öz maliyyə-təsərrüfat fəaliyyətlərinin (gəlirlərinin və xərclərinin) uçotunu aparmırlar və ya uçotun aparılması üçün mühasiblərdən istifadə etmirlər. Sahibkarlar mühasibat xidmətindən istifadə etməklə öz iqtisadi fəaliyyətlərinə nəzarəti təşkil edə, bununla da gələcəkdə baş verənlərin proqnozunu müəyyənləşdirə, ən əsası da qanunvericiliyin tələblərinin pozulmasının qarşısını ala bilərlər.

Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinin haqlı narazılıqları olduğu hallarda onların şikayətləri təmin olunur. Bununla yanaşı, ölkədə islahatların genişləndiyi bir vaxtda vergi ödəyicilərinin də üzərinə müəyyən öhdəliklər düşür. Dövlət tərəfindən sahibkarlar üçün əlverişli biznes mühiti yaradılıb. Sahibkarlar da, öz növbələrində, qanunvericiliyin tələblərinə əməl etməli, gəlir və xərclərin uçotunu düzgün aparmalı, vergiləri dövlət büdcəsinə vaxtında və tam həcmdə ödəməlidirlər. Bu, hər bir vergi ödəyicisinin Konstitusiya ilə müəyyən edilmiş vəzifəsidir və hamı bu vəzifəni yerinə yetirməyə borcludur.

# Vergi güzəştləri xarici sərmayəçilərin sənaye texnoparklarına marağını artırır

Oktyabrın 13-də Vergilər Nazirliyində «Yeni İpək Yolu İqtisadi Həlqəsində dərin və dayanıqlı sənaye inkişafının sürətləndirilməsi: Azərbaycan, Tacikistan, Türkmənistan və Özbəkistan sənaye parklarının, zonalarının və şəhərlərinin potensialının artırılması» adlı layihə çərçivəsində BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNIDO) ekspertləri ilə görüş keçirilib.

Görüşdə respublikamızda həyata keçirilən sənaye siyasətinin əsas istiqamətləri, rəqabətə davamlı sənaye istehsalının artırılması məqsədilə tətbiq olunan yeni modellər, sənaye texnoparkları və məhəllələrinin yaradılması istiqamətində davam etdirilən işlər barədə ətraflı məlumat verilib. Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva bildirib ki, ölkəmizdə sahibkarlığı dəstəkləmək və fəaliyyətini stimullaşdırmaq, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək və qeyri-neft sənayesinin ixracını stimullaşdırmaq məqsədilə davamlı tədbirlər həyata keçirilir. 2013-cü ildə Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklərə əsasən, sənaye texnoparklarına güzəştli vergi rejimi tətbiq olunub. Məcəllənin 199.7 və 199.8 maddələrində qeyd olunub ki, sənaye və texnologiyalar parkının rezidenti olan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti həyata keçirən fiziki şəxslər qanunvericiliyə uyğun olaraq 7 il müddətinə sənaye və texnologiyalar parkındakı əmlaklarına görə əmlak vergisini ödəməkdən azaddırlar. Məcəllənin 207.3 və 207.4-cü maddələrinə əsasən, sənaye və texnologiyalar parkının idarəedici təşkilatı və ya operatoru hesabat ilindən başlayaraq, sənaye və texnologiyalar parkında istifadə etdikləri torpaqlara görə 7 il müddətinə torpaq vergisini ödəməkdən azaddırlar.

S.Musayeva bildirib ki, Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən, 2016-cı il mayın 1-dən Qaradağ Sənaye Parkının rezidenti olan «Bakı Gəmiqayırma Zavodu» MMC 5 il müddətinə fəaliyyəti üçün lazım olan malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsinə görə vergilərdən azad olunub.

Azərbaycan investorların qeydiyyatına sərf olunan vaxt, müddət parametrləri üzrə dünyada 7-ci yerdədir

S.Musayevanın sözlərinə görə, ölkəmizdə investisiya və biznes mühitinin yaxşılaşdırılması və stimullaşdırılması, sənaye istehsalının artırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi və ixrac potensialının artırılması məqsədilə cari ilin may ayından başlayaraq sahibkarlara investisiya təşviqi sənədi verilir. «Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Qanuna əsasən, investisiya təşviqi sənədi - investisiya fəaliyyətini həyata keçirən hüquqi şəxslərə və fərdi sahibkarlara müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydaya uyğun olaraq verilir. Məcəllənin 102.1.23-cü, 106.1.17-ci, 164.1.26-cı, 199.11-ci və 207.5-ci maddələrində (Məcəllənin 67-2-ci maddəsi nəzərə alınmaqla) investisiya təşviqi sənədini almış hüquqi şəxslərdən və fərdi sahibkarlardan vergitutmanın mexanizmləri müəyyənləşib. Dəyişikliklərə əsasən, investisiya təşviqi sənədini aldığı andan fərdi sahibkarın əldə etdiyi gəlirin, hüquqi şəxsin isə əldə etdiyi mənfəətin 50%-i 7 il müddətinə gəlir və ya mənfəət vergisindən azad edilib. Sənədi almış hüquqi şəxslər və fərdi sahibkar tərəfindən müvafiq icra hakimiyyəti orqanının təsdiqedici sənədi əsasında texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalının bu sənədi aldıqları andan 7 il müddətinə ƏDV-dən azad edilməsi nəzərdə tutulub. Bundan başqa, hüquqi şəxslər və fərdi sahibkarlar müvafiq əmlaka görə 7 il müddətinə əmlak vergisi, mülkiyyətlərində olan torpaq sahələrinə görə isə 7 il müddətinə torpaq vergisi ödəməkdən azad ediliblər. Sənədi almış şəxs vergi güzəştlərinin tətbiq olunduğu dövrdə investisiya layihəsinə aid olmayan fəaliyyət göstərdikdə isə həmin fəaliyyətlə bağlı gəlirlərin və xərclərin uçotu ayrıca aparılır. Həmin fəaliyyət sahəsi üzrə sahibkarın əldə etdiyi gəlirlərdən vergilər Məcəllə ilə müəyyən edilmiş ümumi qayda əsasında ödənilir.

Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatının iqtisadi və hüquq məsələləri üzrə ekspertləri Silviya Konti və Luik Saliye-Bresset Azərbaycanda sənaye texnoparklarının yaradılması istiqamətində aparılan siyasəti təqdir etdiklərini bildiriblər. Xanım S.Konti qeyd edib ki, sənaye və yüksək texnologiyalar parkları, aqroparkların yaradılması müasir innovasiyalı iqtisadiyyatın formalaşmasına təkan verəcək. Vergi Məcəlləsinə edilmiş əlavə və dəyişikliklər bu sahəyə investorların axınına, yeni iş yerlərinin yaradılmasına, yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının və ixracının artmasına səbəb olacaq.

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin rəisi Zaur Fətizadə Azərbaycanda xarici investisiya mühitinin yaxşılaşdırılması və sərmayələrin cəlb olunması sahəsində dövlətin həyata keçirdiyi səmərəli vergi-fiskal rejimin əhəmiyyətindən, «İpək yolu» regionunun mühüm strateji tranzit nöqtələrindən biri kimi Azərbaycanda yük daşımalarında tətbiq edilən vergi güzəştlərindən bəhs edib. Bildirib ki, ölkəmizdə həyata keçirilən səmərəli vergi siyasəti xarici sərmayələrin axınına geniş şərait yaradıb. Azərbaycan qanunvericiliyi xarici sərmayələrin cəlbi üçün təkmilləşdirilib, 2008-ci ildən yerli və xarici investorların qeydiyyatı «bir pəncərə» sistemi üzrə həyata keçirilir. Azərbaycan investorların qeydiyyatına sərf olunan vaxt, müddət parametrləri üzrə dünyada 7-ci yerdə qərarlaşıb. Həyata keçirilən digər tədbirlər qeyri-neft sektorunda fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin marağının və sayının artmasına səbəb olub.

Z.Fətizadə bildirib ki, Azərbaycanın tranzit imkanlarından daha geniş və səmərəli istifadə edilməsi, bu sahədə səmərəli vergi-fiskal siyasətin həyata keçirilməsi məqsədilə 2016-cı ildə Vergi Məcəlləsinə yeni dəyişikliklər edilib. Dəyişikliyə əsasən, Azərbaycan ərazisindən xarici dövlətlərə daşınan mallar 2016-cı ilin iyun ayının 1-dən 3 il müddətinə yol vergisindən azad olunub. Bu güzəştlər həm dəmir yolu, həm də yük avtomobilləri və digər avtonəqliyyat vasitələri ilə daşınan yüklərin ixracına tətbiq olunur. Bu addım ölkədən xarici dövlətlərə məhsul ixrac edən sahibkarların daşınma xərclərinin aşağı salınması və onların ixrac imkanlarının yaxşılaşmasına ən böyük dəstək hesab oluna bilər.

**Elbrus CƏFƏRLİ**



## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Əlavə dəyər vergisi

***Ticarət fəaliyyəti göstərən və 6 faiz dərəcə ilə sadələşdirilmiş vergitutma metodunu seçən müəssisə satdığı mallara görə ƏDV hesablamalıdırmı?***

Vergi Məcəlləsinin (VM) 218.1.2-ci maddəsinə əsasən vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququna malikdirlər.

Vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi VM-in 219.1-ci maddəsində müəyyən edilmiş vergitutma obyekti üzrə (qiymətləri Azərbaycan Respublikasının Tarif (Qiymət) Şurası tərəfindən tənzimlənən malların satış dövriyyəsi istisna edilməklə) 6 faiz dərəcə ilə hesablanır (VM, maddə 220.1-1).

**Qeyd olunanlara əsasən:**

ƏDV-nin məqsədləri üçün qeydiyyatda olan və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət fəaliyyəti ilə məşğul olan şəxs bu fəaliyyət üzrə 6 faiz dərəcə ilə sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyət göstərmək hüququna malikdir. Ticarət fəaliyyəti göstərən və 6 faiz dərəcə ilə sadələşdirilmiş vergitutma metodunu seçən müəssisə bu fəaliyyət üzrə ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin ödəyicisi olmadığından müəssisə tərəfindən təqdim edilən mallara görə ƏDV tətbiq edilmir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Bu ilin səkkiz ayında Azərbaycanın valyuta ehtiyatları **40,1 milyard** ABŞ dolları təşkil edib. Bunun **35,9 milyard** dolları Dövlət Neft Fondunun aktivlərinin, **4,2 milyard** dolları isə Mərkəzi Bankın rəsmi valyuta ehtiyatlarının payına düşür.
- 2016-cı ilin yanvar-sentyabr aylarında istehlakçılara **21,1 milyard** manatlıq və ya 2015-ci ilin eyni dövrü ilə müqayisədə **2,3%** çox məhsul satılıb.
- Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı noyabrın 1-də keçiriləcək hərraca **101**, noyabrın 8-də keçiriləcək hərraca isə **77** dövlət müəssisəsi və obyekti çıxarılacaq.
- Cari ilin 8 ayında avtonəqliyyat vasitələri üzrə **2,8 milyon** manat məbləğində sığorta ödənişi həyata keçirilib.
- Respublikanın 8 rayonu üzrə icarədə olan, lakin istifadəsiz saxlanmış **18 min** hektar torpaq sahəsinin icarə müqaviləsinə xitam verilməsi və dövlət mülkiyyətinə geri qaytarılması təmin edilib.

# Transfer qiymət beynəlxalq müstəvidə

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı tərəfindən Türkiyənin paytaxtı Ankara şəhərində «Transfer qiymətin əmələ gəlməsi və gömrük dəyəri» mövzusunda keçirilən seminarda 13 ölkədən 23 nümayəndə iştirak etmişdir. Seminarda transfer qiymətin əmələgəlmə hallarının müəyyən edilməsi ilə yanaşı, «uzadılmış əl» prinsipinin tətbiqi ilə əlaqədar praktiki problem və məsələlərin həlli də diqqət mərkəzində olmuşdur. Seminar əsasən praktiki misallar əsasında keçirilmişdir.

Tədbirdə Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin beynəlxalq təcrübələr və innovasiyalar şöbəsinin əməkdaşı Ceyhun İsmayılov iştirak etmişdir.

# IOTA-nın növbəti seminarı

Avropadaxili Vergi Administrasiyaları Təşkilatı (IOTA) tərəfindən Macarıstanın paytaxtı Budapeşt şəhərində «Transfer qiymətləndirmə məsələləri - qarşılıqlı razılaşma prosedurunun praktiki və prosessual aspektləri» mövzusunda keçirilən seminarda 22 ölkədən 41 nümayəndə, eləcə də IOTA-nın əməkdaşları iştirak etmişlər.

Tədbirin təşkilatçıları IOTA-ya üzv olan əksər dövlətlərin vergi administrasiyalarının qarşılıqlı razılaşma prosedurunun həyata keçirilməsi sahəsində praktiki nöqteyi-nəzərdən az təcrübəyə malik olduqlarını, bu prosedurun bəzi ölkələr tərəfindən tətbiqinə yeni başlanıldığını xüsusilə vurğulayaraq seminarın keçirilməsinin həmin ölkələrin vergi administrasiyaları ilə daha qabaqcıl təcrübəyə malik olan vergi administrasiyaları arasında fikir və təcrübə mübadiləsi baxımından faydalı və əhəmiyyətli olacağını qeyd etmişlər.

Seminarda Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi Baş İdarəsinin Beynəlxalq əməkdaşlıq idarəsinin əməkdaşı Səbinə Mirzəyeva iştirak etmişdir.

# 25 illik şərəfli yol!

1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası ötən 25 ildə mühüm siyasi-iqtisadi, sosial, tarixi-mədəni inkişaf yolu keçib, böyük uğurlara imza atıb. XX əsrdə ikinci dəfə müstəqilliyini əldə edən Azərbaycanda demokratik dövlət quruculuğu, yeni ictimai-siyasi və sosial-iqtisadi sistemə transformasiya, bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılması obyektiv zərurətə çevrilmişdi. Müstəqilliyin ilk illəri respublikamız üçün çətin və ağır tarixi bir şəraitlə müşayiət olunurdu. Qarşıda ölkəmizin ərazi bütövlüyünün qorunması, ictimai təhlükəsizliyin və sosial-iqtisadi rifahın təmin edilməsi kimi mühüm vəzifələr dayanırdı.

90-cı illərin əvvəlində Sovet İttifaqının süqutu, müəssisələr arasında mövcud əlaqələrin pozulması, o dövrdəki siyasi rəhbərliyin səriştəsizliyi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, 1 milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi, Azərbaycanın iqtisadi, siyasi, informasiya blokadasına alınması ölkənin sosial-iqtisadi həyatında xaosa gətirib çıxarmışdı. O dövrün iqtisadi mənzərəsi həmin illərin makroiqtisadi göstəricilərində daha aydın nəzərə çarpır. 1991-1994-cü illər ərzində ölkə iqtisadiyyatında ÜDM hər il orta hesabla 16,5 faiz azalmışdı. Tənəzzül meyli sənayedə xüsusilə kəskin xarakter almış, 1985-ci ilə nisbətən sənaye istehsalının həcmi 1992-ci ildə 37 faiz, 1993-cü ildə isə 50 faizə qədər azalmışdı. Ölkə istehsal potensialının demək olar ki, 2/3-ni itirmiş, istehsal sahələrinin sıradan çıxması nəticəsində işsizlik səviyyəsi artmışdı. 1992-ci ildə inflyasiya səviyyəsi əvvəlki ilə nisbətən 4,9 dəfə artaraq 1012,3 faiz təşkil etmiş, iki il sonra isə özünün ən yüksək həddinə, hiperinflyasiya mərhələsinə - 1763,5 faizə çatmışdı. Büdcə kəsirinin ümumi daxili məhsula nisbəti 1991-ci ildəki 0,1 faizdən 1994-cü ildə 13 faizə qədər artmışdı və büdcə kəsiri bütövlükdə Milli Bank tərəfindən maliyyələşdirilirdi. 1992-1994-cü illərdə xarici ticarət dövriyyəsinin həcmi 42 faiz azalmış, 1994-cü ilədək ölkə iqtisadiyyatına demək olar ki, xarici sərmayə qoyulmamışdı. 1994-cü ildə Milli Bankın uçot dərəcəsi 250 faizə çatmışdı. Əslində ölkə iqtisadiyyatı idarəolunmaz vəziyyətə düşmüşdü. Qeyd olunan proseslər əhalinin güzəranının ağırlaşmasına səbəb olmuşdu. 1991-1995-ci illərdə əhalinin pul gəlirləri real ifadədə 3,3, adambaşına pul gəlirləri orta hesabla 3,6 dəfə aşağı düşmüşdü. 1991-ci ildən başlayaraq 4 il ərzində əhalinin əməkhaqqı isə 5,7 dəfə azalmışdı.

Dövlət ölkənin milli pul-valyuta siyasətini həyata keçirmək məqsədilə 1992-ci il avqustun 17-də müstəqil Azərbaycanın ilk milli valyutası -1, 10 və 250 manatlıq əskinaslar tədavülə buraxdı. Həmin ilin noyabrında 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrında 5 manatlıq əskinas, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əskinaslar dövriyyəyə buraxıldı. Amma ölkədə maliyyə sabitliyinin olmaması, yüksək inflyasiya, iqtisadiyyatdakı dərin böhran tendensiyası manatın məzənnəsinin zəifləməsinə səbəb oldu. Eyni zamanda, 1992-ci ilin avqustundan 1994-cü il yanvarın 1-dək manat Azərbaycan ərazisində 1 manat : 10 rubl nisbətində rubllar ilə paralel olaraq dövriyyədə ödəniş vasitəsi kimi istifadə olunurdu ki, bu da milli valyutanın dəyərinə ciddi təsir edirdi.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində bütün çətinliklərə baxmayaraq ölkəmizin sosial-iqtisadi inkişafı və dünya təsərrüfat sisteminə inteqrasiyası sahəsində böyük quruculuq işləri həyata keçirildi. Özəl mülkiyyət münasibətlərinin əsasını qoyan özəlləşdirmə islahatlarının başlanması, habelə zəngin enerji ehtiyatlarının səmərəli istifadəsi və idarə olunmasını nəzərdə tutan qlobal və regional əhəmiyyətli neft-qaz strategiyasının yaradılması və uğurla reallaşdırılması yeni iqtisadi quruculuq işinin ana xəttinə çevrildi.

1993-cü ildən başlayaraq Azərbaycan iqtisadiyyatında sabitləşmə başlandı. Prezident Heydər Əliyevin rəhbərliyi ilə ölkənin sosial-iqtisadi inkişaf strategiyası hazırlandı. İlk növbədə liberal bazar iqtisadiyyatının qanunvericilik bazası yaradıldı, beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq qanunlar, dövlət proqramları qəbul olundu. Azərbaycan özünün milli sosial-iqtisadi inkişaf modelini hazırladı. Bu modelin əsasını ölkə iqtisadiyyatının inkişafında, onun təhlükəsizliyinin təmin edilməsində, mövcud resurslardan səmərəli istifadə olunmasında, dünya iqtisadiyyatına inteqrasiyada və vətəndaşların rifah halının yüksəldilməsində sosialyönümlü bazar iqtisadiyyatı strategiyası təşkil etdi.

1994-cü il sentyabrın 20-də «Əsrin müqaviləsi» imzalandı və neft strategiyasının həyata keçirilməsinə başlanıldı. Bu müqavilə Azərbaycanın potensial imkanlarını bütün dünyaya göstərməklə yanaşı, xarici investorların ölkəmizə marağının iqtisadi əsaslarını yaratmış oldu.

1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul olunması ölkədə sosial, siyasi, iqtisadi islahatlara geniş zəmin yaratdı. 1996-cı ildə torpaq islahatları həyata keçirildi. Dövlətin tabeçiliyində olan torpaq mülkiyyəti kəndlilərə verildi ki, bu sahədə Azərbaycan MDB-də ilk islahat aparan ölkə hesab olunur. 1997-ci ildən başlayaraq dövlət əmlakının özəlləşdirilməsinə start verildi. Bütün bu islahatlar sayəsində ölkədə güclü sahibkarlar təbəqəsi formalaşdı, özəl bölmənin payı artmağa başladı. 1997-1998-ci illərdə özəl sektorun çəkisi ÜDM-də 8-10% təşkil edirdisə 2003-cü ildə bu rəqəm 50%-ə çatdı.

Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün 1999-cu ildə Bakı-Supsa neft kəməri istismara verildi və bununla da neftin ixrac marşrutlarının diversifikasiyası yaradıldı. Neft gəlirlərinin şəffaf xərclənməsi və gələcək nəsillərə saxlanılması məqsədilə 1999-cu ildə Dövlət Neft Fondu təsis edildi. Həmin strategiyaya uyğun olaraq, neft və qaz gəlirləri əsasən makroiqtisadi sabitliyin qorunub saxlanılması əsasında iqtisadiyyatın qeyri-neft sektorunun, regionların, kiçik və orta sahibkarlığın, infrastruktur sahələrinin inkişafına, yoxsulluğun azaldılması üzrə tədbirlərin həyata keçirilməsinə, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılmasına və digər sosial problemlərin həllinə, eləcə də iqtisadiyyatın intellektual və texnoloji səviyyəsinin yüksəldilməsinin stimullaşdırılmasına, «insan kapitalı»nın inkişafına yönəldilir. Azərbaycanın xarici iqtisadi siyasətinin mühüm istiqamətlərindən birini beynəlxalq maliyyə-kredit və iqtisadi qurumlarla əlaqələr təşkil etmişdir. Azərbaycan, demək olar ki, bütün nüfuzlu beynəlxalq qurumlara, o cümlədən Beynəlxalq Valyuta Fonduna, Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, İslam İnkişaf Bankına, Asiya İnkişaf Bankına üzv qəbul olundu.

1995-ci ildən Azərbaycanda keçid dövrünün yeni mərhələsi - bərpa dövrü başlandı. Ölkədə maliyyə, pul-kredit, vergi, qiymət, gömrük və digər sahələrdə geniş islahatların həyata keçirilməsi Azərbaycanın iqtisadi həyatında mühüm dönüş yaratdı və sonrakı illərdə iqtisadiyyatın bütün bölmələrində artım meyilləri müşahidə olundu. 1995-2003-cü illərdə ölkəmizin strateji valyuta ehtiyatlarından istifadənin səmərəliliyi təmin olundu, milli valyutanın sabitliyi, bank sisteminin etibarlılığı artırıldı, konservativ borclanma strategiyası həyata keçirildi. Müstəqilliyin ilk illərində ölkəmizin valyuta ehtiyatları olmadığı halda, artıq 2003-cü ildə ölkənin 1,6 milyard dollar qədər strateji valyuta ehtiyatları formalaşdırıldı. 1995-2003-cü illər ərzində isə ölkənin strateji valyuta ehtiyatları 85 dəfə artdı. Azərbaycanın 2003-cü ildən sonrakı inkişaf xətti liberal bazar iqtisadiyyatının daha da dərinləşməsi, Avropa İttifaqı və digər dünya ölkələri ilə sıx inteqrasiyası istiqamətində quruldu. Həmin il dövlət başçısı postuna seçilən Prezident İlham Əliyev tərəfindən iqtisadi islahatlar davam etdirildi, yeni proqram və layihələr hazırlanaraq həyata keçirildi. Azərbaycanın paytaxtı ilə regionları arasında tarazlığı bərpa etmək, bölgələrdə inkişafa nail olmaq məqsədilə 2004-cü il fevralın 11-də təsdiqlənmiş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı» həyata keçirildi. 2009-cu il aprelin 14-də «Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı» təsdiqləndi. Hər iki proqram çərçivəsində ölkədə 1,2 milyondan çox yeni iş yeri açılıb. Həmin proqramların icrası nəticəsində 2004-cü ildən etibarən 40 mindən çox yeni müəssisə yaradılıb. Bu tədbirlərin sayəsində ölkədə yoxsulluq səviyyəsi 45 faizdən 5,6 faizədək, işsizliyin səviyyəsi isə 5,2 faizə qədər azalıb.

Ölkədə maliyyə sabitliyinin daha da gücləndirilməsi, valyuta bazarının qlobal çağırışların təsirindən qorunması, milli valyutanın sabit pul aləti kimi dəyərinin möhkəmləndirilməsi, ən əsas məqsəd kimi manatın nominal məzənnəsinin dünyanın aparıcı valyutalarının məzənnələrinə uyğun formalaşdırılması məqsədilə 2005-ci ilin sonlarından başlayaraq yeni pul islahatı - denominasiya həyata keçirildi. Dövriyyəyə yeni manatlar - 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əskinaslar və 1, 3, 5, 10, 20, 50 qəpik metal pul nişanları dövriyyəyə buraxıldı. Həyata keçirilən pul siyasəti ölkədə makroiqtisadi sabitliyin təmin olunmasını gücləndirdi. Azərbaycan 2006-cı ildən başlayaraq enerji siyasətini şaxələndirdi və dünya ölkələrinin enerji təminatında mühüm təchizatçı ölkələrdən birinə çevrildi. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan kəmərinin, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istifadəyə verilməsi ilə ölkəmiz Avropanın əsas enerji tərəfdaşlarından birinə çevrildi. Eyni zamanda, 2008-ci ildə Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin çəkilişinə dair Azərbaycan, Gürcüstan və Türkiyə hökumətlərarası sazişin imzalanması regionda yeni kommunikasiya dəhlizlərinin marşrutunun genişlənməsinə səbəb oldu. 2011-ci ildə Azərbaycan və Türkiyə Trans Anadolu Qaz Boru Kəməri (TANAP) layihəsinə dair anlaşma memorandumunun, 2013-cü ilin iyun ayında isə Trans Adriatik qaz kəməri (TAP) layihələrinə dair dövlətlərarası sazişlərin imzalanması, eləcə də, 2013-cü il sentyabrın 18-də «Şahdəniz-2» layihəsinə sanksiya verilməsi dünyanın enerji xəritəsində Azərbaycanın mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirdi.

2010-cu ildə keçid iqtisadiyyatını arxada qoyaraq Avropa İttifaqı ölkələri ilə sıx inteqrasiyanı gücləndirən Azərbaycanın əldə etdiyi uğurlar beynəlxalq təşkilatların, aparıcı reytinq agentliklərinin qiymətləndirmələrində öz əksini tapdı. Azərbaycan 2011-ci ilin sonlarında 155 ölkənin etimadını qazanaraq BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. Azərbaycan hazırda informasiya-kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi dövlətlər qrupuna daxil olub. 2013-cü il fevralın 8-də Azərbaycanın ilk süni telekommunikasiya peykini orbitə çıxarılması ölkəmizin həyatında çox əlamətdar, tarixi bir gün, böyük nailiyyət olmaqla yanaşı, ölkəmizin kosmik dövlətlər sırasına daxil olmasına səbəb olub.

Müstəqil Azərbaycan Respublikasının ötən 25 ildə əldə etdiyi nailiyyətlərdə, iqtisadi inkişafda həyata keçirilən vergi-fiskal siyasəti mühüm əhəmiyyət kəsb edir. Ümummilli lider Heydər Əliyevin 11 fevral 2000-ci il tarixli fərmanı ilə yaradılan Vergilər Nazirliyi ölkədə müstəqil vergi siyasətinin həyata keçirilməsi, dövlət büdcəsinə vergilərin və digər daxilolmaların vaxtında və tam həcmdə yığılmasının təmin edilməsi sahəsində mühüm rol oynayıb. 2001-ci ilin yanvar ayının 1-dən qüvvəyə minən Vergi Məcəlləsi isə vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etdi, islahatların genişləndirilməsi üçün təkan rolunu oynadı.

Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən vergi siyasəti nəticəsində vergi qanunvericiliyi mütəmadi olaraq təkmilləşdirilib, dəqiqləşmələr aparılıb. Dövlət başçısının vergi sistemini təkmilləşdirmək, vergitutma bazasını genişləndirmək, vergi xidmətini müasir Avropa standartlarına çatdırmaq haqqında verdiyi tapşırıqlar vergi sisteminin inkişafında xüsusi rol oynayıb.

Ötən illərdə vergi qanunvericiliyi davamlı olaraq təkmilləşdirilib. Bu, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi inzibatçılığının təkmilləşdirilməsi, vergi güzəştlərinin tətbiqi, vergidən yayınma hallarına qarşı səmərəli mübarizənin təşkilinə, əlverişli investisiya mühitinin yaradılmasına səbəb olub. Həyata keçirilən bu tədbirlər vergi daxilolmalarının həcminin ilbəil artmasına imkan verib. Vergi daxilolmalarının dövlət büdcəsində xüsusi çəkisi 1995-ci ildən başlayaraq hər il artmağa başlayıb. 2000-ci ildən sonrakı illərdə vergi daxilolmalarının həcmində daha böyük artım qeydə alınıb. 2000-ci ildən 2015-ci ilədək vergi orqanlarının xətti ilə büdcəyə daxilolmalar 13,9 dəfə, o cümlədən qeyri-dövlət sektoru üzrə 24,1 dəfə, qeyri-neft-qaz sektoru üzrə 16,8 dəfə, regionlar üzrə 15,6 dəfə artıb.

2005-2015-ci illərdə vergi daxilolmalarının həcmi 5 dəfə, qeyri-neft-qaz sektorundan daxilolmalar 5,7 dəfə, regionlardan büdcə daxilolmaları isə 10,2 dəfə artıb. Qeyri-neft-qaz sektorundan daxilolmaların ümumi vergi daxilolmalarında xüsusi çəkisi hazırda 70%-ə çatır.

Vergi qanunvericiliyində aparılan dəyişikliklər və təkmilləşmə prosesi davamlı xarakter daşıyır, dəyişikliklər vergi inzibatçılığının sadələşdirilməsi ilə yanaşı, vergi yükünün əhəmiyyətli dərəcədə aşağı salınmasına, sahibkarlıq subyektlərinin sərəncamında daha çox vəsaitin qalmasına xidmət edir. Hazırda vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi zərurəti yaranıb. Dövlət başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sistemində yeni genişmiqyaslı islahatlar üçün mühüm baza yaradır.

**Anar ƏLİYEV**

# Təsərrüfat obyektlərində risklərin qiymətləndirilməsi

Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə «Təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə risklərin qiymətləndirilməsi metedologiyası» təsdiq edilib.

Sənəd «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 avqust tarixli Sərəncamının müvafiq bəndinin icrası məqsədilə hazırlanıb. Məqsəd vergi öhdəliklərini tam və vaxtında yerinə yetirilməsini təmin etmək, vergidən yayınma halları üzrə risklərin qiymətləndirilməsi üçün müvafiq vergi nəzarəti tədbirlərini seçmək və vergi potensialını (vergi boşluğunu) müəyyən etməkdir.

Metodologiya təsərrüfat obyektləri və fəaliyyət sahələri üzrə vergidən yayınma risklərinin qiymətləndirilməsi, vergidən yayınma hallarına yol vermiş vergi ödəyicilərinin vergi potensialının müəyyən edilməsi və yayındırılmış vergilərin dövlət büdcəsinə ödənilməsi məqsədilə həyata keçirilməli olan vergi nəzarəti tədbirinin seçilməsi mexanizmlərini müəyyənləşdirir. Bu metodologiyadan vergi nəzarəti tədbirlərinin düzgün seçilməsi, planlaşdırılması və səmərəli həyata keçirilməsi üçün istifadə ediləcək. Sənədə əsasən, risklər üzrə kameral vergi yoxlaması Vergi Məcəlləsinin 37.2-ci maddəsində nəzərdə tutulmuş müddət ərzində həyata keçirilməlidir. Bu müddət bitdikdən sonra risklərə əsasən həmin bəyannamə üzrə yenidən kameral vergi yoxlaması keçirilə bilməz.

Qaydalara əsasən, vergi uçotunda olan vergi ödəyicisi tərəfindən malların istehsal və ya təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi yer öz əksini tapacaq. Vergi riskləri və vergi öhdəliklərinin hər hansı sahədə düzgün müəyyən edilməsi nəticəsində vergi ödəyicisinin maliyyə itkisinə məruz qalmasının mümkünlüyü göstəriləcək. Bundan başqa, biznes qrupu - analoji fəaliyyətlə məşğul olan vergi ödəyiciləri iqtisadi göstəricilər üzrə təsnifləşdirilərək biznes qruplarına (kiçik, orta və iri qruplara) bölünəcək. Risklərin qiymətləndirilməsi Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemində (AVİS) olan məlumatlardan istifadə etməklə həyata keçiriləcək. Hər sahə üzrə spesifik risklərin müəyyən edilməsi və qiymətləndirilməsi üçün istifadə olunan məlumatların dəqiqliyi araşdırılacaq. Hər sahənin xüsusiyyətinə uyğun parametrlər müəyyənləşdiriləcək. Risklərin qiymətləndirilməsi və vergi potensialının hesablanması ilə bağlı təhlillər isə analoji məlumatlar əsasında müəyyənləşdiriləcək. Təhlillər iki yolla - vertikal və mütənasib təhlil üsulu ilə aparılacaq. Hər iki təhlil üsulunun nəticələrinə əsasən risklər faizlə ifadə olunacaq. Faizlərin nisbətlərinə müvafiq olaraq 7 ballıq şkala əsasında hər risk intervalı üzrə qiymət (bal) müəyyən ediləcək.

Beləliklə, aparılan təhlillər vergi ödəyicilərinin vergidən yayınma risklərinin qiymətləndirilməsi əsasında yarana biləcək vergidən yayınma hallarının vaxtında qarşısının alınmasını təmin edəcək. Vergi növləri üzrə vergi potensialının qiymətləndirilməsi və büdcəyə vergi daxilolmalarının müəyyənləşdirilməsi, habelə vergi nəzarəti tədbirlərinin düzgün seçilməsi də bu metodologiya əsasında tənzimlənəcək.

**ELBRUS**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Oktyabrın 28-29-da Bakıda keçiriləcək Dünya azərbaycanlı iş adamlarının birinci Forumunda 33 ölkədən 160-a yaxın biznes nümayəndəsi iştirak edəcək.

Oktyabrın 31-də Bakıda VII Azərbaycan-Rusiya Regionlararası Forumu keçiriləcək.

Rumıniyada keçirilən Beynəlxalq Asiya Multimodal Logistika Konfransının iştirakçılarına Ələt qəsəbəsində yaradılan Azad Ticarət Zonası tipli iqtisadi zona barədə məlumat verilib.

Trans-Anadolu qaz boru kəmərinin Çanaqqala boğazından keçəcək 17,6 kilometrlik dəniz hissəsinin tikintisinə 2017-ci ilin yayında başlanacaq.

Azərbaycan və İran arasında Xəzərdənkənar hövzələrdə yükdaşımalar sahəsində birgə layihələr həyata keçiriləcək.

Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası və Azərbaycan-Niderland İşgüzar Mərkəzi (Business Hub) arasında anlaşma memorandumu imzalanıb.

Bərpa olunan enerji üzrə BMT-nin ekspertlər qrupunun sessiyası ilk dəfə mənzil-qərargahdan kənarda - Bakıda təşkil olunacaq.

# Bəyannamələr üzrə kameral vergi yoxlamalarının aparılması

Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» sərəncamının 2.2-ci bəndinin icrası məqsədilə hazırlanmış «Bəyannamələrin kameral vergi yoxlamalarının aparılmasına dair Qaydalar» Vergilər Nazirliyi Kollegiyasının qərarı ilə təsdiq olunub.

Vergilər Nazirliyinin Vergi risklərinin təhlili və nəzarəti Baş İdarəsinin Vergi nəzarətinin təkmilləşdirilməsi və avtomatlaşdırılması idarəsinin rəisi Elşən Rəhimli sənədi şərh edərək bildirib ki, kameral yoxlama aparmaq üçün vergi ödəyicisindən təqdim olunan bəyannamə ilə bağlı sənədlərdəki məlumatlar arasında ziddiyyət və ya səhv aşkar edildikdə vergi orqanı vergi ödəyicisindən əlavə məlumat, sənəd və izahat tələb edə bilər. Kameral yoxlama nəticəsində vergi bəyannaməsində vergilərin düzgün hesablanmaması, yəni vergi məbləğinin az və ya artıq göstərilməsi aşkar edildikdə vergi ödəyicisinə 5 iş günü ərzində vergi orqanı tərəfindən vergilərin hesablanmasına dair vergi orqanının qərarı göndərilir.

Qeyd edilib ki, vergi ödəyicisindən xronometraj metodu ilə yeni müşahidə keçirilməsi barədə müraciət daxil olan dövrədək xronometraj metodu ilə sonuncu müşahidənin nəticələri vergilərin hesablanması üçün əsas götürülə bilər. Vergi ödəyicisi tərəfindən dəqiqləşdirilməmiş və ya vaxtında təqdim edilməmiş hesabatlar səyyar vergi yoxlamasının başlandığı günədək təqdim edilə bilər. Fərdi sahibkarların gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi və əmlak vergisi üzrə cari ödəmələri üzrə vergi ödəyicisinə «Cari vergilərin hesablanması barədə bildiriş» göndərilir.

Vergi ödəyiciləri tərəfindən e-formada BTP proqramı vasitəsilə və ya onlayn formada tərtib edilərək şifrə, parol və ya elektron imza vasitəsilə İnternet Vergi İdarəsi səhifəsindən göndərilən bütün bəyannamələr, həmçinin kağız formasında, ştrix-kodla təqdim olunan bəyannamə və ya arayış formaları Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) məlumat bazasına daxil edildikdən sonra Vergilər Nazirliyi tərəfindən riyazi və məntiqi əsaslarla müəyyən edilən müxtəlif risk meyarları üzrə elektron şəkildə mərkəzləşdirilmiş qaydada və ya fərdi şəkildə uyğunsuzluq yoxlamasından keçirilir:

> Vergi ödəyicisi tərəfindən dəqiqləşdirilməmiş və ya vaxtında təqdim edilməmiş hesabatlar səyyar vergi yoxlamasının başlandığı günədək təqdim edilə bilər

Elektron şəkildə mərkəzləşdirilmiş qaydada uyğunsuzluqların yoxlanması zamanı bəyannamə və ya arayış formalarındakı uyğunsuzluqlar sistem tərəfindən avtomatik olaraq yoxlanılır və hər vergi bəyannaməsi və ya arayış formasının özünə aid olan uyğunsuzluqlar aşkar edilərək qeyd olunmuş bəyannamə və ya arayış forması ilə əlaqələndirilir, bununla bağlı məlumatlar AVİS-in müvafiq menyusunda öz əksini tapır;

Daxil olmuş bəyannamələr və ya arayış formalarının siyahısından uyğunsuzluq yoxlamasından keçirilməyən bəyannamə və ya arayış formaları seçilərək fərdi qaydada uyğunsuzluqdan keçirilə bilər.

AVİS-dənkənar kameral vergi yoxlamaları təqdim edilmiş vergi bəyannamələrinə əsasən, vergi ödəyicilərinin iqtisadi göstəricilərinin müxtəlif risk meyarları nəzərə alınaraq fərdi qaydada araşdırılmaqla və təhlil edilməklə aparılır.

E.Rəhimlinin sözlərinə görə, kameral yoxlama zamanı vergi bəyannaməsində vergilərin düzgün hesablanmaması aşkar edildikdə və ya kameral yoxlama aparmaq üçün vergi bəyannaməsi, sənədlər və məlumatlar üzrlü əsas olmadan təqdim edilmədikdə vergi orqanlarının vergiləri əlaqəli məlumatlara əsasən hesablamaq hüququ vardır: «Vergi ödəyicisi tərəfindən ödənilməli olan verginin əlaqəli məlumatlara əsasən müəyyənləşdirilməsi üçün eyni xüsusiyyətli və ya eynicinsli malların istehsalı, təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsi, fəaliyyət göstərilən ərazi nəzərə alınmaqla vergi ödəyicisinin fəaliyyətinə oxşar və ya onunla eyni fəaliyyətlə məşğul olan vergi ödəyicisinin məlumatlarından istifadə edilir. Vergilər əlaqəli məlumatlar və analoji vergi ödəyicisi barədə məlumatlar əsasında hesablandıqda verginin məbləği vergi ödəyicisinin müvafiq olaraq gəlirinin, yaxud gəlirdən çıxılan xərclərinin məbləğini analoji fəaliyyətlə məşğul olan vergi ödəyicisinin həmin hesabat dövrünə aid gəlirində, yaxud gəlirdən çıxılan xərclərində verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyənləşdirilir. Vergi ödəyicisi barədə əlaqəli məlumatları əldə etmək mümkün olmadıqda isə vergilər analoji fəaliyyətlə məşğul olan vergi ödəyicilərinin uçot və hesabat məlumatları əsasında hesablanır. Muzdla işləyən fiziki şəxslərin gəlir vergisini əlaqəli məlumata əsasən hesablamaq mümkün olmadıqda və ya fiziki şəxslərin işləməsi rəsmiləşdirilmədikdə vergi orqanı gəlir vergisinin məbləğini ötən ilin ölkə üzrə orta aylıq əməkhaqqı əsasında hesablayır. Verginin hesablanması üçün vergi ödəyicisi barədə vergi orqanında bir neçə əlaqəli məlumat olduqda vergi ən yuxarı məbləğdə hesablanmasına əsas verən əlaqəli məlumat nəzərə alınaraq hesablanır. Vergi Məcəlləsinin 67.1-ci maddəsində göstərilən hallarda vergi ödəyicisinin gəlirlərini və ya xərclərini müəyyən etmək mümkün olduqda mənfəət (gəlir) vergisi bu Məcəllənin 83.9-cu maddəsinə əsasən hesablanır».

**A. NƏBİYEVA**

# Sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edilməsi

> Digər vergilər kimi sadələşdirilimiş vergi ödəyiciləri də vergi orqanına qanunvericilikdə müəyyən edilmiş müddətədək bəyannamə təqdim etməlidirlər.

Sahibkarlıq fəaliyyəti çərçivəsində malların (işlərin, xidmətlərin), habelə əmlakın təqdim olunması ilə məşğul olan və vergi orqanında sadələşdirilmiş vergi ödəyicisi kimi uçota alınan hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verməli və həmin müddət ərzində vergini dövlət büdcəsinə ödəməlidirlər. Ölkə ərazisində avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşımalarını həyata keçirən sadələşdirilmiş vergi ödəyiciləri qanunvericilikdə başqa hallar nəzərdə tutulmamışdırsa, bu fəaliyyətə görə vergi orqanlarına bəyannamə vermirlər. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və ya yük daşımalarını həyata keçirən şəxslər hər bir avtomobil nəqliyyatı vasitəsi üçün təqvim ayının sonunadək növbəti ay (aylar) üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı» almalıdırlar. Avtonəqliyyat vasitəsinin sahibi və ya istifadəçisi dəyişdikdə həmin nəqliyyat vasitəsinə sonrakı aylar üçün əvvəlki sahib və ya istifadəçi tərəfindən qabaqcadan ödənilmiş vergilər nəzərə alınır və verginin ödənildiyini təsdiq edən «Fərqlənmə nişanı»nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

Bina tikintisi fəaliyyəti ilə məşğul olan sadələşdirilmiş vergitutma metodunu seçmiş şəxslər hər bir tikinti sahəsi üçün sadələşdirilmiş vergini tikinti-quraşdırma işlərinin başlandığı rübdə hesablayırlar və onlar həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına bəyannamə verməlidirlər. Bu fəaliyyətlə məşğul olan vergi ödəyiciləri vergi ödəyicisi kimi uçota alındıqları yerdən asılı olmayaraq, bina tikintisi fəaliyyətinin faktiki həyata keçirildiyi ərazi üçün müəyyən edilmiş qaydaya uyğun hesablanmış sadələşdirilmiş vergini bərabər hissələrlə 10 faiz həcmində hər rübdən sonrakı ayın 20-dən gec olmayaraq öhdəlik tam yerinə yetirilənədək dövlət büdcəsinə ödəməlidirlər.

Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 gün ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

İdman-mərc oyunlarını həyata keçirən idman-mərc oyunlarının operatoru üçün oyun iştirakçılarından qəbul edilmiş pul vəsaiti, idman-mərc oyunlarının satıcısı üçün isə operatorun ona verdiyi komisyon haqq sadələşdirilmiş verginin vergitutma obyekti təşkil edir. İdman-mərc oyunlarının operatoru tərəfindən oyun iştirakçılarından qəbul edilmiş vəsaitdən 6 faiz dərəcəsi ilə, idman-mərc oyunlarının satıcısı tərəfindən isə operatorun ona verdiyi komisyon haqdan 4 faiz dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır, hesabat rübdən sonrakı ayın 20-dən gec olmayaraq «Sadələşdirilmiş verginin bəyannamə»si ilə vergi orqanına bəyan edilməklə dövlət büdcəsinə ödənilməlidir.

Oktyabrın 17-si tarixinə vergi orqanları üzrə sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edilməsi göstəricilərinə görə, Naxçıvan MR Vergilər Nazirliyi üzrə 86,7%, Bakı Vergilər Departamenti üzrə 47,9%, 1 saylı Vergilər Departamenti üzrə 54,3%, 2 saylı ƏVD üzrə 50,2%, 3 saylı ƏVİ üzrə 71,4%, 4 saylı ƏVİ üzrə 59,3%, 5 saylı ƏVİ üzrə 95,0%, 6 saylı ƏVİ üzrə 71,8%, 8 saylı ƏVİ üzrə 78,9%, 9 saylı ƏVİ üzrə 72,8%, 10 saylı ƏVİ üzrə 58,2%, 11 saylı ƏVD üzrə 53,7%, 12 saylı ƏVD üzrə 56,7%, 13 saylı ƏVİ üzrə 49,4%, 14 saylı ƏVİ üzrə 78,2% sadələşdirilmiş vergi bəyannaməsi təqdim edilib.

Qeyd edək ki, vətəndaş yalnız ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olursa və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manatdan artıqdırsa, seçimindən asılı olaraq sadələşdirilmiş vergi ödəyicisi ola bilər. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər də öz seçimlərindən asılı olaraq sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququndan istifadə edə bilər. Bunlardan əlavə, avtonəqliyyat vasitəsilə respublika ərazisində daşımalar həyata keçirən, idman-mərc oyunlarını həyata keçirən, mənzilini və ya qeyri-yaşayış obyektini satan şəxslər də sadələşdirilmiş vergi ödəyicisi hesab edilirlər.

**AYTƏN**

Vergi orqanları üzrə sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edilməsi vəziyyətinin faizlə göstəricisi *(17.10.2016)*




## kit r fli SMS xidm tind n istifad qaydalar

İkitərəfli SMS xidmətindən «Azercell», «Bakcell» və «Narmobile» mobil operatorlarının abonenti istifadə edə bilər.

Xidmətdən istifadə etmək üçün mobil telefonda *195* istifadəçi kodu*şifrə# yığılır və «YES» (məsələn: *195*00000541*121756#YES) düyməsi sıxılmaqla nömrə qeydiyyatdan keçirilməlidir.

Xidmətə abunə olmaq üçün qeydiyyatdan keçirilmiş mobil telefon nömrəsindən START yazıb 8195 nömrəsinə SMS göndərilməlidir. Bu zaman Sizə 21 halda müvafiq məzmunlu SMS göndəriləcək.

Nömrə qeydiyyatdan keçirildikdən sonra xidmətə abunə olmadan 8195 nömrəsinə:

1 yazıb göndərməklə - dövlət büdcəsinə olan vergi borcu barədə

2 yazıb göndərməklə - təqdim edilməli bəyannamələr barədə

3 yazıb göndərməklə - fəaliyyətin aktiv və ya dayandırılmış olması barədə

4 yazıb göndərməklə - e-qutuda oxunmamış məktubların olub-olmaması barədə

5 yazıb göndərməklə - qeydiyyatda olan təsərrüfat subyektləri barədə məlumat ala bilərsiniz

8195 nömrəsinə göndərilmiş hər sorğuya görə nömrənin balansından 10 qəpik xidmət haqqı tutulur. Abunə olmuş vergi ödəyicilərinin nömrəsinin balansından ayda 1 manat 18 qəpik abunə haqqı tutulur.

# Biznesin təşkilində əsas istiqamətlər

Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir. Sahibkarlıqla bağlı münasibətlər mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq, Azərbaycan Respublikasının Konstitusiyası, «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktı, «Azərbaycan Respublikasının iqtisadi müstəqilliyi haqqında» Konstitusiya Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, «Mülkiyyət haqqında» Azərbaycan Respublikasının Qanunu və bunların əsasında qəbul edilmiş digər qanunvericilik aktları ilə tənzimlənir.

**Sahibkarlıq fəaliyyətinin əsas hüquqi formaları**

«SM Consulting MMC»nin rəhbəri, vergi məsləhətçisi və müstəqil ekspert Emin Səttarovun sözlərinə görə, sahibkarlıq fəaliyyəti ilə fiziki (hüquqi şəxs yaratmadan), yaxud hüquqi şəxs kimi məşğul olmaq olar: «Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində fiziki şəxslər hüquqi şəxslərlə eyni hüquqlara malikdirlər. Fərdi sahibkarlıq - hüquqi şəxs yaratmadan fiziki şəxslərin gəlir əldə etmək məqsədilə yaratdıqları sahibkarlıq fəaliyyətinin bir növüdür. Bu fəaliyyət həmin şəxslərin mülkiyyətə əsaslanaraq, risk və məsuliyyəti öz boynuna götürməsilə həyata keçirilir. Hüquqi şəxs qanunla müəyyənləşdirilmiş qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh kimi çıxış etmək hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır. Hüquqi şəxslər bir fiziki və ya hüquqi şəxs tərəfindən, o cümlədən həm fiziki, həm də hüquqi şəxslərin iştirakı ilə yaradıla bilər.

Hüquqi şəxslər kommersiya və qeyri-kommersiya olmaqla iki qrupa ayrılırlar: Fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan bütün hüquqi şəxslər kommersiya hüquqi şəxsləri sayılır. Qeyri-kommersiya hüquqi şəxsləri isə ictimai birliklər, fondlar, hüquqi şəxslərin ittifaqları və digər formalarda yaradıla bilər».

Mütəxəssis qeyd edib ki, təsərrüfat ortaqlıqları tam ortaqlıq və ya kommandit ortaqlığı formasında yaradıla bilər. Təsərrüfat cəmiyyətləri məhdud və əlavə məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti formasında yaradıla bilər: «Tam ortaqlığın iştirakçıları nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ortaqlığın öhdəlikləri üzrə onlara mənsub əmlakla məsuliyyət daşıyırlar. Bu formada əmlakın formalaşma mənbələri əsas etibarilə iştirakçıların paylarından ibarət olur».

**Hüquqi şəxslərin qeydiyyatının aparılması**

Azərbaycanda hüquqi şəxslərin qeydiyyatının daha da təkmilləşdirilməsi məqsədilə bu sahədə elektron qeydiyyatın həyata keçirilməsinə başlanılmışdır. «Dövlət rüsumu haqqında» Qanuna müvafiq olaraq, Azərbaycan Respublikasında hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz aparılır, artıq nizamnamə kapitalının əvvəlcədən ödənilməsi və e-qeydiyyat zamanı ərizənin notarial qaydada təsdiqlənməsi tələb olunmur. Hüquqi şəxslərin elektron dövlət qeydiyyatı adi (3 gündən gec olmayaraq) və ya sürətli elektron dövlət qeydiyyatı (hüquqi ünvanı yeganə təsisçi kimi çıxış edən fiziki şəxsin yaşayış yeri üzrə qeydiyyat ünvanı ilə eyni olan yerli investisiyalı cəmiyyətin real vaxt rejimində aparılan elektron dövlət qeydiyyatı) qaydasında həyata keçirilir. Elektron dövlət qeydiyyatının həyata keçirilməsi üçün Vergilər Nazirliyinin «İnternet vergi idarəsi»ndə yerləşdirilmiş elektron ərizə forması doldurularaq gücləndirilmiş elektron imza (imza sahibinin nəzarəti altında olan elektron imza vasitələri ilə yaradılan və yalnız imza sahibinə məxsus olmaqla onu identikləşdirən, əlaqəli olduğu məlumat bildirişinin bütövlüyünü, dəyişməzliyini, təhrif olunmadığını və saxtalaşdırılmadığını müəyyən etməyə imkan verən elektron imza) ilə təsdiq edilməlidir.

Bununla yanaşı, qeydiyyat zamanı Vergilər Nazirliyinə yanlış məlumatların verilməsinin qarşısını almaq məqsədilə İnzibati Xətalar Məcəlləsinə əsasən, belə hallara yol vermiş fiziki şəxslərin 700 manat, hüquqi şəxslərin isə 4000 manat məbləğində cərimə olunması nəzərdə tutulur.

Lisenziya fəaliyyəti üzrə rüsumlar, sahibkar və bankın mövqeyi nəzərə alınmaqla biznes-plana dair tələblər sahibkarın mövqeyindən - bazis məlumat üzrə tələblərin hazırlanmasından ibarətdir.

Müəssisəyə dair ümumi məlumatlar isə layihənin təsviri, bazar analizi, satışın planlaşdırılması, xammalın əldə edilməsi, hüquqi normalar, investisiya xərcləri, dövriyyə-nəticə, müəssisənin ümumi kapital axınının planlaşdırılması, zəmanətlər və digər sənədlər əsasında qurulur.

**Biznes-plan...**

Biznes-plan planlaşdırılmış fəaliyyətin strukturlu izahıdır (biznes ideyası). Çünki konseptual yanaşma olmadan biznes fəaliyyətinə başlamaq mənasızdır. Bir istinad nöqtəsi kimi məqsədlərin nəzarətdə saxlanması və kreditin əsaslı olmasının bank tərəfindən dəyərləndirilməsi üçün biznes-plan vacibdir. Aydın, məlumatlı və ətraflı şəkildə tərtib edilməklə özündə ən əsas məsələləri birləşdirən biznes-plan fəaliyyətin bütün aspektlərini ehtiva etməlidir. Biznes-planın təqdim edilməsi bankdan kredit tələb edilməsi üçün məcburi şərtdir.

E.Səttarov bildirib ki, biznes-plana aid olan tələblər müxtəlif olur: «Məsələn, əgər siz bankdan böyük məbləğdə kredit əldə etmək istəyirsinizsə, onda biznes-plan üçün məsrəflər də böyük olur. Biznes-plan banka təqdim edilməzdən əvvəl o, mütəxəssislər tərəfindən ciddi analiz olunmalı və qiymətləndirilməlidir. Bu zaman planlaşdırdığınız fəaliyyət növü üçün rədd cavabı alsanız, onda şansınızı əldən vermiş sayılırsınız və adətən belə olan təqdirdə, heç bir bank sizə ikinci şans vermir».

**FƏXRİYYƏ**

> Azərbaycan Respublikasında hüquqi şəxslərin elektron dövlət qeydiyyatı rüsumsuz aparılır, artıq nizamnamə kapitalının əvvəlcədən ödənilməsi və e-qeydiyyat zamanı ərizənin notarial qaydada təsdiqlənməsi tələb olunmur

# Avtomobillərin icbari sığortası elektronlaşdırılır

İcbari Sığorta Bürosundan verilən məlumata görə, avtomobillərin icbari sığortasının elektron satışına başlanacaq. Hazırda elektron müqaviləyə keçidlə bağlı sistemdə texniki işlər görülür və bu ilin sonuna kimi proses yekunlaşacaq. Yeniliyə əsasən, sürücülər avtomobillərini elektron qaydada sığortalamaq üçün elektron imzadan istifadə etməli olacaqlar.

Mövzu ilə bağlı sığorta üzrə ekspert Hikmət Allahverdinin sözlərinə görə, bu il fevral ayının 16-da «İcbari sığortalar haqqında» Qanuna edilən dəyişikliklərdə icbari sığorta müqavilələrinin elektron qaydada bağlanması nəzərdə tutulub. Elektron satışdan söhbət gedirsə, elektron ödəmə vasitələrinin tətbiqi mütləqdir. Lakin müəyyən problemlərin yaranacağı da istisna deyildir. Vahid informasiya sisteminin mövcudluğu sığorta şirkətlərinin işini asanlaşdırsa da, əhalinin elektron ödəmə vərdişlərinin azlığı prosesin əvvəlində çətinliklər yaradacaqdır. Sığorta haqqının ödənilməsi bank kartları, ödəmə terminalları və ya sığorta şirkətlərinin bank hesabı vasitəsilə aparıla bilər. Yəqin ki, bank kartları vasitəsilə «online» ödəmələrdən başqa, digər iki ödəmə formasında müqavilənin qüvvəyə minməsi və ya ləğv edilməsi üçün müəyyən vaxt təyin ediləcəkdir və bu müddət ərzində sığortalı sığorta haqqının ödənişini həyata keçirməzsə, müqavilə qüvvədən düşmüş hesab ediləcəkdir. Əgər belə bir müddət təyin olacaqsa, bu ən geci müqavilənin qüvvəyə minəcəyi vaxtadək olmalıdır («icbari sığorta» müqaviləsi ilk dəfə bağlanılırsa, müqavilənin yazıldığı gün, gecə saat 00:00-da qüvvəyə minir. «İcbari sığorta» müqaviləsi təkrarlanırsa, bu halda qüvvədə olan müqavilənin bitməsinə bir ay qalmış yenilənə bilir ki, bu halda müştəriyə yeni müqavilənin ödənişi üçün müqavilənin yazıldığı gün gecə saat 00:00-dək deyil, yeni müqavilənin qüvvəyə minəcəyi gecə, saat 00:00-dək vaxt verilə bilər).

Avtomobillərin icbari sığortası ilə bağlı elektron satışların sığorta bazarına müsbət təsirlərindən biri də şirkətlər arasında rəqabətin tənzimlənməsi ola bilər. Ekspertin fikrincə, bu vəziyyət rəqabəti gücləndirəcək və bu sağlamlaşdıracaq: «Çünki avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası qanunla tənzimlənir, bütün şirkətlər eyni şərtlərlə satır, qiymət dövlət tərəfindən tənzimlənir və bütün şirkətlərdə eynidir. Müştəriyə sadəcə şirkəti seçmək qalır ki, bu baxımdan sığorta şirkətləri maksimum operativ və keyfiyyətli xidmət göstərməyə, daha asan, daha əlçatan olmağa çalışacaqlar».

Maliyyə Bazarlarına Nəzarət Palatası icbari avtomobil sığortası ilə bağlı endirim və güzəştləri qadağan etsə də, sığorta bazarında yenə qanunsuz güzəştlərə rast gəlinir. İcbari sığortanın elektron satışı bu məsələni aradan qaldıracaqmı?

H.Allahverdi bildirdi ki, qiymətlər, şərtlər kimi sığorta haqqına endirimlər də vahid formada tənzimlənir: «Ötən illərdə hadisə törətmiş sığortalılar üçün sığorta haqqının artması da bonus-malus sistemi əsasında müəyyənləşir ki, sığorta hadisəsi baş verməmiş hər il növbəti il üçün sığorta haqqında endirim qazandırır. İndiyədək sığorta agentlərinin etdiyi əlavə güzəştlər qanunsuz idi və nəzarətedici orqanın son zamanlar atdığı addımlar bu qanunsuz hərəkətlərə son verilməsinə hesablanıb».

Məhsulun keyfiyyətinə gəldikdə, sığortanın şərtləri və qiyməti qanunla tənzimlənir: «Elektronlaşma sığorta prosesini şəffaflaşdırdığı üçün şirkətlərin qanunsuz endirimlərlə önə çıxmaq şansı olmayacaq və onlar sığorta hadisəsi zamanı xidmətin keyfiyyətini qaldırmaqda maraqlı olacaqlar. Nəticədə sığortalı müştəri əvvəlkindən daha keyfiyyətli xidmət almış olacaq».

**F. İKRAMQIZI**


## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin oktyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin oktyabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa,
Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə,
rəsmi internet saytının «Sual-cavab» bölməsinə
www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az
internet ünvanına müraciət edə bilərsiniz.

**Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi**


## vergi taqvimi

| OKTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | **2** |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | **9** |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | **16** |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | **23** |
| 24/31 | 25 | 26 | 27 | 28 | 29 | **30** |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**

20 oktyabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «9», «(9-1)», «10.1», «10.2», «10.3» və «11».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə)** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır.

İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi**: Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.


## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

beynəlxalq panoram

## İtaliya zəlzələdən zərərçəkənlər üçün vergi tələblərini təxirə salıb

Ölkədə bu yaxınlarda baş vermiş zəlzələ ilə əlaqədar hökumət vergi tələblərinin hamısını dayandırmışdır. Yeni dəyişikliklər zəlzələnin təsirinə məruz qalmış rayonlara yardım üçün nəzərdə tutulan qrantların və digər tədbirlərin tətbiqi ilə bağlı sərəncamda öz əksini tapmışdır.

Nazirlər Kabinetinin iclasında qeyd edilmişdir ki, fors-major şəraitlə əlaqədar ödənişlərin mümkünsüzlüyünün müvafiq sənədlər vasitəsilə zəlzələnin nəticələri ilə bağlı olduğunu nümayiş etdirən bütün fiziki və hüquqi şəxslər üçün vergi müddətləri uzadılır. Vergi güzəştlərinə həmçinin vergi bəyannamələrinin təqdim edilməsi, eləcə də sosial sığorta haqlarının, inzibati cərimələrin ödənilməsi, icarə, ipoteka və kredit müddətlərinin uzadılması, kommunal xidmətlər üçün hesablar da daxildir.

## «eBay» 1,1 milyard gəlir üçün 1,1 milyon vergi ödəyib

«eBay» internet mağazası Böyük Britaniyanın onun üçün dünyada ildə 1,1 milyard funt sterlinq gəlir yaradan ikinci böyük bazar olduğunu bildirsə də, keçən ilin nəticələrinə görə, mağaza bu ölkədə əldə etdiyi gəlirlər üçün cəmi 1,1 milyon funt sterlinq vergi ödəmişdir. Belə görünür ki, «eBay» özünün korporativ strukturundan istifadə edərək vergi öhdəliklərini azaltmışdır, daha doğrusu, yüz minlərlə Britaniya satıcılarının reklam yığımları xarici filiallar vasitəsilə icra edilmişdir.

«eBay»ın Böyük Britaniyadakı baş ofisindən bildirilmişdir ki, keçən il cəmi 185 milyon funt sterinq məbləğində gəlir əldə edilmişdir və buna da müvafiq olaraq 1,1 milyon funt sterlinq vergi ödənilmişdir. 372 əməkdaşı olan «eBay (UK) Ltd»nin son hesabatlarından belə görünür ki, Britaniyanın törəmə şirkətləri bu ölkənin satıcıları tərəfindən eBay.co.uk saytında verilmiş reklamlara görə heç bir haqq almırlar.

Deməli, Britaniya «eBay»ı gəlirlərini özünün İsveçrədəki əsas şirkəti olan «eBay International AG»nin göstərdiyi xidmətlərdən əldə edir. Berndə yerləşən bu firma Lüksemburqdakı filialından da istifadə edir. Həmin filial «eBay»ın ABŞ-dan kənardakı ən mühüm əməliyyatlarının mərkəzi hesab edilir. Orada keçirilən internet-hərrac hər il yüz milyonlarla dollar vergi məbləğinin qənaət edilməsinə şərait yaradır.

«Biz qaydalara əsasən oynayırıq, - «eBay» nümayəndəsi bildirmişdir. - Bəli, öz vergi öhdəliklərimizi azaltmaq üçün Lüksemburq və İsveçrə kimi bəzi ölkələrdə mövcud olan aşağı vergi dərəcələrindən istifadə edirik. Lakin qanundan kənar olan heç bir iş görmürük».

## Amerikada «kişi vergisi»

ABŞ-da, Nyu-Yorkun Soho rayonundakı apteklərdən birində maraqlı bir elan asılmışdır: «Qadın müştərilər vergilərdən azaddır. Kişi müştərilər isə 7% vergi ödəməlidirlər».

Aptek sahibləri bunu belə izah edirlər ki, kişilər üçün vergi qadın və kişi təyinatlı malların qiymətlərində bərabərlik yaradılması məqsədini daşıyır. Məsələ bundadır ki, sosioloji araşdırmalardan birinin nəticələrinə görə, qadınlar üçün istehsal edilən mallar kişilər üçün mallarla müqayisədə 7% bahadır: «Kişilərə vergi tətbiq etməklə biz qadınların həyatını bir qədər yüngülləşdirməyə çalışmışıq, onsuz da qadınlar daha artıq pul xərcləyirlər. Qoy kişilər 7% artıq pul ödəsinlər, burada cinsi mənsubiyyətə görə heç bir ayrı-seçkilik əlaməti yoxdur», - aptek sahibi öz mövqeyini belə izah etmişdir.

## Xəbər lenti

**Ukrayna**da Vergi Məcəlləsinə dəyişikliklər təsdiq edilmişdir. Bu addımın atılmasında əsas məqsəd vergi sisteminin sadələşdirilməsi ilə investisiya mühitinin yaxşılaşdırılması, şəffaflığın və vergi inzibatçılığının keyfiyyətinin artırılması, vergidən yayınmanın qarşısının alınmasıdır.

**Hindistan**ın Maliyyə Nazirliyi 2016-cı ildə hökumətin təyin etdiyi vergi əfvi hüququndan istifadə etmiş vətəndaşların vergi bəyannamələrinin ictimaiyyətə açıqlanmayacağını vəd etmişdir.

**Avropa Şurası** bank əmanətləri ilə əlaqədar gəlirlərə görə yaranan vergidən yayınmaya qarşı mübarizə çərçivəsində maliyyə hesabları barədə məlumatların avtomatik mübadiləsinə dair Monako ilə imzalanmış sazişi bəyənmişdir.

**Tayvan** parlamentində hər qutu siqaret üçün vergini 64 sentədək artırmaq təklifi irəli sürülmüşdür.

**Sinqapur və Yaponiya** maliyyə informasiyalarının OECD hesabat standartları əsasında avtomatik mübadiləsi barədə razılığa gəlmişlər. Bu addımın atılmasında məqsəd vergidən yayınma hallarının aşkar edilməsi və aradan qaldırılmasıdır.

**Rusiya**nın Maliyyə Nazirliyində nazir A.Siluanovun iştirakı ilə İctimai Şuranın iclası keçirilmişdir. İclasda 2017-2019-cu illər üzrə büdcə və vergi siyasətinin əsas istiqamətləri müzakirə edilmişdir.

**ABŞ-ın Filadelfiya** şəhərinin hakimiyyəti qazlı içkilərin distributorlarının yerli vergiyə cəlb olunmaları barədə qərar qəbul etmişdir. Daha şirin, eləcə də pəriz içkilərinin hər unsiyası üçün verginin məbləği 1,5 sent təşkil edir.



## Norveç korporativ vergini azaldır

Hökumət korporativ vergini azaltmaq və 2017-ci il büdcəsi çərçivəsində maliyyə sahəsindən vergi daxilolmalarını artırmaq niyyətindədir. Parlamentin qəbul etdiyi vergi islahatlarına uyğun olaraq ölkə rəhbərliyi elan etmişdir ki, korporativ vergi 2017-ci ildə 26%-dən 25%-ə, 2018-ci ildə isə 23%-dək aşağı salınacq.

Bununla belə, korporativ vergi dərəcələrinin azaldılması maliyyə sektorunda çalışan şirkətlərə şamil edilməyəcək. Bu şirkətlər 25%-lə vergi ödəməyə davam edəcəklər. Hökumət həmçinin bu cür firmalar üçün maliyyə fəaliyyəti üzrə əməkhaqqından tutulmaqla 5% dərəcəsi üzrə yeni vergi tətbiq olunmasını təklif etmişdir.

Hökumət tərəfindən bildirilmişdir ki, 2017-ci ilin büdcəsi iqtisadi artımın stimullaşdırılmasına yönəldilmişdir. Biznesə investisiya axınlarının gücləndirilməsi məqsədilə xalis aktivlər üçün verginin azaldılması da təklif edilmişdir.

## İsveç ekoloji yönümlü vergi sistemini təqdim edib

Hökumət məişət tullantılarının azaldılması və dayanıqlı tələbatın stimullaşdırılması üçün əlavə vergi tədbirləri həyata keçirmək niyyətində olduğunu bəyan etmişdir. İsveçin təqdim etdiyi «Dayanıqlı tələbat strategiyası» velosiped, paltar və ayaqqabı kimi əşyaların təmirinə tətbiq olunan ƏDV dərəcəsinin 25%-dən 12%-ə endirilməsini əhatə edilir. Bu təklif ilk dəfə büdcə layihəsi çərçivəsində ortaya atılmışdı. Bunlardan başqa, məişət texnikasının təmiri üçün vergi kreditinin verilməsi də təklif edilmişdir.

Yeni vergi siyasəti çərçivəsində hökumət bir sıra elektron məhsulların tərkibindəki təhlükəli kimyəvi maddələr üçün vergi tətbiq olunmasını da təklif etmişdir. Hökumət tərəfindən bildirilmişdir ki, ilin sonuna qədər aviadaşımaların vergiyə cəlb olunması ilə bağlı yeni təkliflərini də irəli sürmək niyyətindədir.

## Avstraliya parlamenti gəlir vergisinin orta dərəcəsini yüksəldib

Ölkədə orta gəlir vergisinin orta dərəcəsinin 80.000 Avstraliya dollarından (1 Avstraliya dolları=0,758 ABŞ dolları=) 87.000-ə qaldırmaq barədə qanun qəbul edilmişdir. Baş xəzinədar Skott Morrisonun bildirdiyinə görə, orta dərəcə üçün müəyyən edilmiş həddin səviyyəsini qaldırmaqla hökumət ildə 300 dollara qədər vergi güzəşti hesabına tam iş günü işləyən muzdlu işçilər cəlb edə biləcək.

Hazırda Avstraliya vətəndaşları üçün vergiyə cəlb olunan məbləğin həddi 18.200 dollardır. Yeni qəbul edilmiş qanuna əsasən isə dərəcələr bu həcmdə tətbiq ediləcək:

18.201 - 37.000 dollar üçün 19%
37.001-87.000 dollar üçün 32,5%
87.000 -180.000 dollar üçün 37%
180.001 dollardan artıq üçün 45%

Morrison qeyd etmişdir ki, vətəndaşlar öz şəxsi gəlirləri üçün müəyyənləşdirilmiş vergi güzəştinin hamısını keçmiş tarixlə - iyulun 1-dən alacaqlar, oktyabrın 1-dən isə ölkədə vegi ödəyicilərinin müvafiq kateqoriyası üçün aşağı vergi dərəcəsi tətbiq olunur.

## Finlandiyada əmlak vergisi artırılacaq

Hökumət gələn ilin büdcəsi üçün bələdiyyə mülkiyyətində olan əmlak üçün verginin artırılmasını nəzərdə tutmağı təklif etmişdir. Hazırda daimi yaşayış üçün istifadə edilməyən əmlak və torpaq üçün bələdiyyədən asılı olaraq vergi tutulan əmlakın dəyərinin 0,1-1,55%-i həcmində müxtəlif dərəcələrlə vergi tutulur. Bu verginin dərəcəsi gələn il 0,93-1,8% səviyyəsinə qaldırıla bilər.

Bundan əlavə, gələn il içində daimi yaşayış olan əmlak üçün də verginin dərəcəsi 0,37-0,8%-dən 0,41-0,9%-ə qədər qaldırıla bilər. Tikinti üçün ayrılmış, lakin inşaat başa çatdırılmamış torpaq sahələri üçün də vergi 1-4%-dən 2-6%-ə qədər artırılacaq.

krossvord



**Yuxarıdan aşağı:** 1.İordaniyada Ammanın 22 km cənubunda, 8-ci əsrin ortalarına aid Əməvilər sarayı; 2.Gənc azərbaycanlı qadın yazıçının adı. Bir sıra povestlərin müəllifidir; 3.Bir şəklin, rəsmin və ya onun bir hissəsinin ilk qaralaması; 4.Qədim dövrlərin yadigarı olan şey, hadisə; 5.Asiyanın şərq sahillərində ada; 6.Obyektin insan şüurunda obyektiv inikas forması, surəti; 7.Azərbaycanın xalq şairinin adı. Təbiət mövzusunda əsərləri ilə məşhurdur; 13.Fransanın qərbində çay; 15.Mexaniki yay-ox soyuq atıcı silah növü; 16.Üzvi maddələr sinfinə daxil olan iysiz maye; 17.Cütdırnaqlılar dəstəsinin boşbuynuzlular fəsiləsinə aid heyvan; 18.Türkiyə pop ulduzu, meqastarı; 20.Mürəkkəb sözlərin əvvəlində «beynəlxalq» mənasını daşıyan söz; 21.Boksda uzaq məsafədən yan tərəfdən vurulan zərbə. **Soldan sağa:** 1.Aralıq dənizində ada. Toskan arxipelaqına daxildir; 8.Malın, məmulatın tipi; 9.Süsənkimilər fəsiləsinə aid bitki cinsi; 10.Fransanın cənubunda şəhər; 11.Qədim Romanın ən əzəmətli tarixi abidəsi, dünyada ən böyük antik amfiteatr sayılır; 12.İrland əsilli ingilis filosofunun, görkəmli yazıçısının və şairinin soyadı. Bir sıra pyes, nağıl, roman, povest və poemaların müəllifi. Viktorian dövrünün ən məşhur dramaturqu; 14.Təyyarələrin saxlanması və cari təmiri üçün xüsusi tikili (bina); 19.Qədim yunan mütəfəkkiri, fəlsəfədən əvvəlki dövrün ən görkəmli nümayəndələrindən biri; 21.Rusiyada çay; 22.Balkan yarımadasının qərbində çay; 23.«General Motors» konserninə daxil lüks avtomobil markası; 24.Almaniyada şəhər; 25.Meymun növü.



Qədim Romanın ən əzəmətli tarixi abidəsi

Tərtib etdi: Rafael

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Nəsibə *(Zeynalova)*; 2.Mustafa; 3.Zaman; 4.Arnold *(Şvartsenegger)*; 5.İmandra; 6.Alibi; 7.Türkan *(Şoray)*; 13.Lego; 15.Debüssi *(Klod)*; 16.Fosfor; 17.Ankara (döyüşü); 18.Medium; 20.Sekta; 21.Draje. **Soldan sağa:** 1.Numizmatika; 8.Susuman; 9.Aqiar; 10.Braun; 11.Lüdmila *(Qurçenko)*; 12.Vafli; 14.Qayda; 19.Oksigen; 21.Dübre; 22.Faks; 23.Sarabski *(Hüseynqulu)*; 24.Ria; 25.Planerizm.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 11000

idman

# Güləşçilərimiz «Qitələrarası Kubok» beynəlxalq turnirində 1 gümüş medal qazanıblar



**Dağıstanın Xasavyurt şəhərində sərbəst güləş üzrə 8-ci «Qitələrarası Kubok» beynəlxalq turniri keçirilib. Pəhləvanlarımız turniri 1 gümüş medalla başa vurublar.**

Turnirdə 65 kiloqram çəkidə mübarizə aparan Məhəmməd Müslümov finaladək bütün rəqiblərindən üstün olub. Həlledici görüşdə yerli idmançı ilə qarşılaşan təmsilçimiz məğlub olub və gümüş medalla kifayətlənib.

Eyni çəki dərəcəsində mübarizə aparan digər güləşçimiz Mahal Novruzov isə bürünc medal uğrunda görüşdə uduzub və turniri beşinci sırada tamamlayıb.

# Azərbaycanlı FİFA referisinə növbəti təyinat verilib

Azərbaycanlı FİFA referisi Əliyar Ağayev Avropa Liqasının qrup mərhələsinin daha bir oyununa təyinat alıb. Təmsilçimiz «Konyaspor» - «Braqa» oyununu idarə edəcək. Ə.Ağayevə Rza Məmmədov, Zeynal Zeynalov və Mübariz Həşimov kömək edəcəklər. Orxan Məmmədov və Rəhim Həsənov isə əlavə köməkçi hakimlər kimi meydana çıxacaqlar. Qeyd edək ki, Konyadakı oyun sabah, Bakı vaxtı ilə saat 21:00-da başlanacaq.

# Azərbaycan Dünya İdman və Mədəniyyət Forumunda

**Oktyabrın 19-dan 22-dək Yaponiyada Dünya İdman və Mədəniyyət Forumu keçiriləcək. Yaponiya Təhsil, Mədəniyyət, İdman, Elm və Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə keçirilən bu beynəlxalq tədbirə 60 ölkədən 300-dən çox nümayəndənin qatılacağı gözlənilir.**

Dünya İdman və Mədəniyyət Forumu 2019-cu il Dünya Reqbi Kuboku, «Tokio-2020» Olimpiya və Paralimpiya Oyunları və 2021-ci il Kansay Dünya Ustaları Oyunları ərəfəsində keçirilməklə bu yarışların yüksək səviyyədə təşkilinə öz töhfələrini verəcək. Forum zamanı əsasən üç mövzunun - «İnsan keyfiyyətlərinin təkmilləşdirilməsi», «Dünya üzrə insanlararası mübadilənin inkişafı» və «İqtisadi və mədəni yeniliklərin yaradılması» mövzularında müzakirələr nəzərdə tutulur. Dünyanın müxtəlif ölkələrindən gələn idman, mədəniyyət və biznes sahəsində tanınmış mütəxəssislər, beynəlxalq təşkilatların rəhbərləri, görkəmli tədqiqatçılar, kütləvi informasiya vasitələrinin nümayəndələri yapon həmkarları ilə birlikdə məhz həmin istiqamətlərdə müzakirələrə qatılacaqlar.

Dünya İqtisadi Forumunun dəstəyi ilə keçiriləcək bu yeni beynəlxalq tədbirdə idman yarışları zamanı biznesin imkanlarının daha da genişləndirilməsi yolları da müzakirə olunacaq.

# Bakı birinciliyinin qalibləri müəyyənləşib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Hövsan Olimpiya İdman Kompleksində yeniyetmələr arasında sərbəst və yunan-Roma güləşi üzrə paytaxt birinciliyi keçirilib. Yarışda 2000-2001-ci il təvəllüdlü yeniyetmələr arasında sərbəst güləş üzrə 12 klubu təmsil edən 255 idmançı 10 çəki dərəcəsi üzrə mübarizə aparıb.

Birincilikdə Elmir Cəlilov (42 kq), Mürşüd Hüseynov (46 kq), Ramin Əzimov (50 kq), Məmməd Əhmədov (54 kq), Elmar Kazımov (58 kq), Elvin Dünyamalıyev (63 kq), Hüseyn Əmir (69 kq), Fuad Mayılov (76 kq), Pərviz Həsənov (85 kq) və Ayaz İsmayılov (100 kq) qızıl medal qazanıblar.

Yunan-Roma güləşi üzrə 18 klubu təmsil edən 282 idmançı 10 çəki dərəcəsində xalça üzərinə çıxıb. Sərbəst güləş üzrə yarışlarda ilk üç, yunan-Roma güləşi üzrə yarışlarda isə ilk beş yeri tutan idmançılar açıq Respublika turnirinə vəsiqə əldə ediblər.

Qalib idmançılar Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və medallarla mükafatlandırılıblar.

# Uşaq Paralimpiya İdman Oyunları keçiriləcək

Noyabrın 11-də Sumqayıt Paralimpiya İdman Kompleksində təşkil olunacaq yarışlar Azərbaycan Milli Paralimpiya Komitəsinin (AMPK), «Azercell Telekom» MMC-nin və UNICEF-in Azərbaycan nümayəndəliyinin birgə təşkilatçılığı ilə keçiriləcək. Turnirdə respublikanın müxtəlif regionlarını təmsil edən uşaq paralimpiyaçılar idmanın beş növü (cüdo, üzgüçülük, masaüstü tennis, qolbol və boccia) üzrə güclərini sınayacaqlar. Yarışda sağlamlıq imkanları məhdud 60-dan çox uşaq mübarizə aparacaq. Azərbaycanda 2013-cü ildə yaradılmış Uşaq Paralimpiya Komitəsinin yaradılmasında məqsəd ehtiyat idmançıların hazırlanması ilə yanaşı, sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasına dəstək verməkdir.

# «PCJ»dən Neymar üçün rekord məbləğ



Fransanın «PSJ» futbol klubu «Barselona»nın hücumçusu Neymarın izinə düşüb. Paris təmsilçisi braziliyalı forvardın transferi üçün hazırda fantastik məbləğ - 222 milyon avro ödəməyə hazırdır. Məlumata görə, «PSJ» bu təklifdən geri çəkilmək niyyətində deyil. Müqavilədə göstərilən məbləğin isə 2018-ci ildə 250 milyona yüksəldilməsi nəzərdə tutulur. Xatırladaq ki, Fransa çempionu hələ ötən futbol mövsümündən Neymara elçi düşsə də, «sambaçı» sövdələşmədən imtina etmişdi.

mozaika

elm




Rusiyanın Yer Qabığı İnstitutunun alimləri təhlükəli zəlzələlərin əlaqədar olduğu qırılma (Yer qabığı yarıqları) kimi pozuntuların xüsusiyyətlərini öyrənmək üçün georadiolokasiya metodunu tətbiq ediblər. Onlar Yerin fəal yarıqlarını və zəlzələlərlə bağlı olan geoloji prosesləri tədqiq ediblər. Tədqiqatlar Rusiya Elm Fondunun (REF) qrantının köməyi ilə aparılıb. «Russian Geology and Geophysics» jurnalında bu barədə məqalə dərc olunub.

Alimlər yarıqların parametrlərini ölçməyi öyrənmək üçün georadiolokasiya məlumatlarından maksimum faydalanmağa çalışırlar. Həmin parametrlər bahalı və böyük zəhmət tələb edən metodların müxtəlif səbəblərdən işə yaramadığı yerlərdə seysmik və geoloji təhlükələri qiymətləndirmək üçün lazımdır.

Geoloqlar Mondin yarığını öyrəniblər. 1950-ci il aprelin 4-də baş vermiş 6,9 maqnitudalı güclü zəlzələ bu yarıqla bağlı olub. Həmin zəlzələdə yaxınlıqdakı qəsəbəyə xeyli ziyan dəyib, taxta evlərin çoxu dağılıb.

Alimlər gələcəkdə zəlzələləri proqnozlaşdırmaq üçün Yer qabığında hansı proseslərin getdiyini başa düşmək istəyirlər. Onlar Yer kürəsi və onun prosesləri haqqında aktual və faydalı informasiya əldə etmək üçün məlumatların geoloji interpretasiyasına yanaşmanı təkmilləşdirirlər.

# Yeni nəsil superkompüter gəlir

Çinin Milli Müdafiə Elm və Texnika Universiteti ilə Dövlət Superkompüter Hesablamaları Mərkəzi yeni nəsil superkompüter hazırlamağa başlayıb.




Milli Müdafiə Elm və Texnika Universiteti nümayəndəsinin sözlərinə görə, yeni superkompüter saniyədə kvintilyon əməliyyat yerinə yetirə biləcək. Gələcək superkompüter elmi-texniki tərəqqinin irəliləməsində və müxtəlif sahələrin inkişafında mühüm rol oynayacaq.

Bir müddət əvvəl Avropa İttifaqı, Yaponiya və ABŞ da yeni nəsil superkompüter hazırlamağa başlayıblar. Onların məqsədi 2020-ci ilədək saniyədə kvintilyon əməliyyat yerinə yetirə biləcək kompüter ərsəyə gətirməkdir.

Xatırladaq ki, ölkədə altı il əvvəl hazırlanan ilk «Tianhe-1» superkompüteri saniyədə kvadrilyon əməliyyat yerinə yetirə bilir. Kompüter hazırda da fəaliyyət göstərərək neft kəşfiyyatı, avadanlıq istehsalı, bioəczaçılıq və s. ilə əlaqədar qarşıya qoyulan vəzifələri icra edir. «Tianhe-1» hər gün 1400-dən çox tapşırıq yerinə yetirir.

texnologiya

# Qidalara dad verən çəngəl

London Universitetinin professoru Edrian Çeokun rəhbərlik etdiyi alimlər qrupu tərəfindən ərzaqların dadını dəyişə bilən «ağıllı» çəngəl - cihaz hazırlanıb. «Taste Buddy» adlı bu cihazın yaradılmasının əsas məqsədi qidaların insan üçün daha sağlam olmasını təmin etməkdir.

Qidalara zəif elektrik cərəyanı ötürərək çalışan cihaz insan orqanizmi üçün tamamilə təhlükəsizdir. Ağızda olan reseptorlar da ona qarşı həssasdırlar. Belə ki, çəngəl qidanın daha şirin və ya daha duzlu dad verməsini təmin edə bilir. Mütəxəssislər ılıq qidalarda şirin dadın soyuq qidalara nisbətən daha çox hiss olunduğunu təyin ediblər. Buna görə də çəngəl 40 dərəcəyə qədər qıza bilir.

Cihazın işlək prototipi ilk dəfə İngiltərənin Birmingham şəhərində keçirilmiş «The Big Bang UK» yarmarkasında təqdim olunub. Bu yeni növ çəngəli sınaqdan keçirənlər duz və şəkərdən daha az istifadə edirlər. Bu isə həzm və ürək-damar sisteminin fəaliyyətinə müsbət təsir edərək çəkinin azalmasına imkan yaradır.

Cihazın hazırlanma səbəbini açıqlayan Edrian Çeok deyib: «Çəngəl maraqlı bir təcrübə üçün hazırlanmışdı. Daha sonra o, böyük potensialı olan bir layihəyə çevrildi. Bu texnologiyanı təkcə çəngəldə reallaşdırmaq şərt deyil. Əşyanın formasının heç bir önəmi yoxdur. Gələcəkdə hətta dad dəyişən qaşıqların və fincanların da hazırlanması planlaşdırılır. Bu texnologiyanın təkmilləşdirilməsi dad dəyişilməsinə daha kəskin təsir etməyə imkan verəcək. Məsələn, insanlar tərəvəzlərin dadını şokolada çevirə biləcəklər».



cəmiyyət

# Ədəbiyyat üzrə növbəti Nobel mükafatçısı

«Cənnətin qapılarını döymək» («Knockin' on heaven's door») mahnısı ilə əfsanəyə çevrilən amerikalı yazıçı və musiqiçi Bob Dilan Ədəbiyyat üzrə Nobel mükafatına layiq görülüb.

Robert Allen Simurden və ya səhnə adı ilə Bob Dilan 1941-ci ildə ABŞ-ın Minnesota ştatının Dulut şəhərində anadan olub, Hibbinq əyalətində boya-başa çatıb. Babası Ziqman Simurden və nənəsi Anna Simurden 1905-ci ildə Osmanlı imperiyasının Trabzon şəhərindən Rusiya imperiyasının Odessa şəhərinə köçüb. Anasının atası Benjamin Eledsteyn və ana nənəsi Libba Edelsteyn Litva əsilli yəhudilərdir. Dilan 2004-cü ildə «Xronikles: Volum Van» adlı xatirələrində ata nənəsinin kağızmanlı (Kağızman Qarsda yer adıdır) olduğunu, evlənməzdən əvvəl soyadının «Kirgiz» (qırğız-türk) olduğunu, nənə valideynlərinin nəslinin İstanbuldan gəldiyini yazır. 1971-ci ildə yazdığı «Tarantula», 1972-ci ildə «Yazılar və rəsmlər», 1994-cü ildə «Boş kağız», 2003-cü ildə «Bob Dilanın qəti musiqi kitabı», 2004-cü ildə «Xronikles: Volum Van», 2004-cü ildə «1962-2001 mahnı sözləri», 2005-ci ildə «Bob Dilanın kəsik kitabı - 1956-1966» kitabları daha çox rokçuluqla şöhrət qazanan Dilanın ədəbiyyat sahəsində də bir o qədər istedadlı olduğunu sübuta yetirdi.




Dilanın «Küləkdə uçuşanlar», «Zamanlar, onlar dəyişir» mahnıları üçün yazdığı sözlər ABŞ-da insan hüquqları və antimilitarizm hərəkatlarının himninə çevrilib.

Bob Dilan Ədəbiyyat üzrə Nobel mükafatını «Amerikanın musiqi ənənələrində poetik obrazlar yaratdığına görə» alıb. 10 Qremmi mükafatı almış Dilan hələ 18 yaşında təhsil aldığı universitetdən qovulub.

**Müdriklər deyib ki...**

*«Münasibət gəmi kimidir, kiçik bir tufana dözümü yoxdursa, onunla açıq dənizə çıxmağa dəyməz».*

*Paulo Koelyo (1947)*

